www.musavat.com

# YENİ MÜSAVAT

Qurucusu: Rauf Arifoğlu Gündəlik qəzet 13-14 aprel 2019-cu il Şənbə № 78 (7248) Qiymətı 60 qəpik

**Xəbər**

**"Sosial şəbəkələrdə vəziyyət çox təhlükəlidir, tədbirlər görülməlidir" - ekspertdən çağırış**

yazısı səh.5-də

**Gündəm**

**AŞ PA-dakı dinləmələrin pərdəarxası...**



**Fazil Mustafa:** "Düşünülmüş şəkildə və qərəzli ittihamların olması çox üzücüdür"

yazısı səh.9-da

**Aİ ilə saziş Azərbaycan iqtisadiyyatına nələr vəd edir...**

yazısı səh.5-də

**Elinanın intiharının tükürpədici detalları üzə çıxır - rəfiqəsindən şok açıqlama**

yazısı səh.6-da

**Sudanda hakimiyyətə yenə hərbçilər gələ bilər**

yazısı səh.14-də

**Təhlükəsizlik üzrə ekspert yanğınlarda təxribat izindən danışdı**

yazısı səh.7-də

**Paris-Ankara münasibətləri gərginləşir - Çavuşoğlundan Fransaya sərt sözlər**

yazısı səh.8-də

**Sürət qatarı Ağstafaya qədər gedəcək**

yazısı səh.2-də

**Azərbaycanda ilk meyvə plantasiyaları**

yazısı səh.10-da

**Müxalifətdən İbrahimbəyovun "zorən vahid namizəd oldum" iddiasına cavablar**

yazısı səh.11-də

**Bakının Baş Planını Almaniyanın "AS+P" şirkəti hazırlayacaq**

yazısı səh.13-də

**AŞPA sosial mediaya dair qətnamə qəbul etdi**

yazısı səh.2-də

# MOSKVA GÖRÜŞÜ DANIŞIQLARIN SONU OLA BİLƏR - II QARABAĞ SAVAŞI AN MƏSƏLƏSİDİR

Ermənistan hökumətinin ziddiyyətli və təhrikçi mövqeyi Azərbaycan üçün başqa seçim imkanı qoymur; **Rəsmi Bakı:** "Ermənistan işğalçı qüvvələri Azərbaycan ərazilərindən geri çəkilmədən və oradan zorla qovulmuş azərbaycanlı məcburi köçkünlər geri qayıtmadan sülh mümkün deyil"; **general Aydəmirov:** "Bu dəfə elə zərbə endirmək lazımdır ki, daha heç bir zaman özlərinə gəlməsinlər"




yazısı səh.4-də

## İntihar baş verən məktəbin direktoru, onun müavini və psixoloq işdən çıxarıldı

**Nazir Ceyhun Bayramov:** "Ailə üzvləri ilə yaxından əməkdaşlıq edərək, ona psixoloji-mənəvi dəstək göstərilməsinə laqeyd yanaşılıb, məktəb rəhbərliyi hadisədən dərhal sonra adekvat və zəruri tədbirlərin görülməsini də təmin etməyib"

yazısı səh.3-də



*Novella Cəfəroğlu:*

**"İmkan verməməliyik ki, Aİ ilə saziş ərəfəsində münasibətləri pozmaq istəyənlərin əlinə bəhanə keçsin"**

yazısı səh.11-də



*Tural Abbaslı:*

**"Özünə müxalifət deyən bəzi qüvvələr hakimiyyətə gələrsə vəziyyət gərginləşə bilər"**

yazısı səh.12-də



*Bəxtiyar Sadıqov:*

**"Bəzən şəxsimizə çox haqsız hücumlar da olub"**

yazısı səh.3-də

# "Rusiya ilə əlaqələr çoxplanlıdır" - Prezident İlham Əliyev

**"Azərbaycana xoş gəlmisiniz. Sizin səfərinizə çox şadam. Siz Azərbaycana belə geniştərkibli nümayəndə heyəti ilə gəlmisiniz. İlk növbədə, Sizi bu yaxınlarda qeyd edilən yubileyiniz münasibətilə şəxsən təbrik etmək istərdim. Mən Sizə təbrik məktubu göndərmişdim və bir daha şəxsən təbrik etmək, ən xoş arzularımı bildirmək və işinizdə uğurlar arzulamaq istərdim. Əlbəttə, biz çox şadıq ki, yubileydən az sonra Siz bizim ölkəmizi ziyarət edirsiniz. Biz bu səfərə çox böyük əhəmiyyət veririk".**



"Report" xəbər verir ki, bunu Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Rusiya Federasiyası Federal Məclisi Federasiya Şurasının sədri xanım Valentina Matviyenkonun başçılıq etdiyi nümayəndə heyətini qəbul edərkən deyib.

Dövlət başçısı əmin olduğunu bildirib ki, bu, iki ölkə arasında dostluq əlaqələrinin daha da möhkəmlənməsinə təkan verəcək: "Əlaqələr çoxplanlıdır, həyatın demək olar ki, bütün sahələrini əhatə edir və yaxşı dinamikaya malikdir. Biz siyasi sahədə fəal qarşılıqlı fəaliyyət göstəririk, iqtisadi potensialı artırırıq, uğurla həyata keçirilən iqtisadi, nəqliyyat, energetika sahələrində əməkdaşlıq üzrə bir neçə yol xəritəsi mövcuddur. Təsadüfi deyil ki, hər iki tərəf ölkələrimiz arasında münasibətləri strateji tərəfdaşlıq münasibətləri kimi dəyərləndirir".

**İkitərəfli münasibətlərin inkişafında humanitar sahənin xüsusi əhəmiyyət kəsb etdiyini bildirən Prezident İlham Əliyev bu işdə Bakı Humanitar Forumunun rolunu qeyd edib, təhsil, mədəniyyət, elm sahələrində sıx əlaqələrin mövcud olmasından məmnunluğunu bildirib.** Dövlət başçısı Şimal-Cənub dəhlizi ilə bağlı birgə fəaliyyətin də iqtisadi əməkdaşlığın genişləndirilməsində mühüm rol oynadığını deyib. Prezident İlham Əliyev, eyni zamanda, parlamentlərarası əməkdaşlığın əlaqələrimizin inkişafına töhfə verdiyini vurğulayıb. Dövlət başçısı ikitərəfli münasibətlərimizin bundan sonra da uğurla inkişaf edəcəyinə əminliyini bildirib.

## Azay Quliyev seçiciləri ilə növbəti görüşünü keçirdi

**Milli Məclisin deputatı Azay Quliyev Yeni Azərbaycan Partiyasının Binəqədi rayon təşkilatının inzibati binasında seçiciləri ilə növbəti görüşünü keçirib.**



Deputat secicilərin sosial, məşğulluq, əmək, mənzil və əmlak məsələləri ilə əlaqədar müraciətlərini dinləyib.

Seçicilərin qaldırdıqları məsələlərin bir qismi yerindəcə həll olunub. Digər müraciətlərin də həlli ilə bağlı müvafiq qərarlar qəbul edilib.

Görüşdə iştirak edən seçici Bahar Əliyeva, S.S.Axundov küçəsi 3, 3A və 3B binalarının sakinləri adından deputat Azay Quliyevə ünvanlanan təşəkkür məktubunu təqdim edərək qeyd edib ki, son 2 il ərzində mövcud olan və onları ciddi narahat edən problem Azay Quliyevin müdaxiləsi ilə aradan qaldırılıb.

Qəbulda Əmək Əhalinin Sosial Müdəfiəsi Nazirliyi yanında Dövlət Sosial Müdafiə Fondunun Binəqədi rayon şöbəsinin müdiri Cahandar Axundov və Binəqədi rayon Məşğulluq İdarəsinin rəisi Anar Bağıyev də iştirak edib.

Xatırladırıq ki, Azay Quliyevin rəsmi internet səhifəsində seçicilərin qəbulu üçün onlayn qeydiyyat sistemi (http://azayguliyev.az/qebul.php?cat=112&lang=az) fəaliyyət göstərir. 8 saylı Binəqədi birinci Seçki Dairəsinin seçiciləri elektron müraciət imkanından yararlanaraq deputatın qəbuluna yazıla bilərlər.

## Sürət qatarı Ağstafaya qədər gedəcək

### Elyar Muradov: "Bu məsələ planda nəzərdə tutulur"

**Bakıdan Gəncəyə sürət qatarının işə salınmasından sonra Qərb zonasında yaşayan əhali onun ölkənin Qərb sərhədlərinə qədər uzadılması ilə bağlı təkliflər səsləndirməyə başlayıb.**

Bununla bağlı redaksiyamıza müraciət edən bölgə sakinləri bildirirlər ki, Bakıdan-Qazağa gedən sərnişin qatarları 10-11 saat, avtobuslar isə 7-8 saatdan sonra mənzilbaşına çatırlar: "Gəncəyə 4 saatdan az bir müddətə gələn qatarın Ağstafaya çatması üçün uzağı bir saat vaxt tələb olunur. Bu isə bizim yola sərf etdiyimiz vaxtın azı iki saat qısalması deməkdir".

Sakinlər bildirirlər ki, əksər hallarda avtobusla Gəncəyə gəlib oradan sürət qatarına minirlər ki, bu da onlar üçün həm əlavə vaxt itkisi, həm də əziyyət deməkdir: "Qatar Ağstafaya qədər gedərsə, minlərlə insanın Bakıya gediş-gəlişi asanlaşmış olar. Qatarın özü də sərnişin problemi ilə üzləşməz".

"Azərbaycan Dəmir Yolları" Qapalı Səhmdar Cəmiyyətinin sürət qatarının Ağstafaya qədər gedişini təmin etmək barədə planları varmı? Bunun üçün hansı işlər görülməlidir? "Yeni Müsavat"ın bununla bağlı sualını cavablandıran **QSC-nin Sərnişin Daşımaları Departamentinin rəhbəri Elyar Muradov** bildirir ki, ölkədə dəmiryolu dəyişən cərəyana keçirilir: "Bu il ərzində dəmiryolunun dəyişən cərəyana keçirilməsi nəzərdə tutulur. Buna nail olduqdan sonra sürət qatarının Ağstafaya qədər getməsi təmin ediləcək. Yəni bu, planda var və icrası istiqamətində də işlər gedir".

**Departament rəhbərinin sözlərinə görə, dəmiryolunun texniki imkanları sürət qatarının Ağstafaya qədər getməsinə tam imkan verir:** "Burada sadəcə, platformaların yenidənqurulması lazımdır. Dəyişən cərəyana keçdikdən sonra öz qatarlarımız da ikili sistemdə işləyə biləcək".

**❑ DÜNYA,**
**"Yeni Müsavat"**


## Abunə daha sərfəlidir - "Yeni Müsavat" abunə kampaniyasını davam etdirir




"Yeni Müsavat" qəzeti oxucularına bəyan edir ki, abunə yazılmaqla qəzeti daha sərfəli qiymətlərlə əldə edə bilərlər.

Köşklərdən alınan qəzetin bir nüsxəsi 60 qəpikdir. Abunə ilə qəzetin bir nüsxəsi isə sizə daha ucuz - **48 qəpiyə** başa gələcək.

**Aylıq abunə - 12 AZN**
**3 aylıq - 36 AZN**
**6 aylıq - 72 AZN**

Abunə yazılmaq üçün yaşadığınız ərazidə istənilən poçt şöbəsinə müraciət edə bilərsiniz.

Eyni zamanda Poçt Daşıma Mərkəzinin baş ofisi ilə: **(012) 598-49-55** nömrəsi ilə əlaqə saxlaya bilərsiniz.

Bundan başqa "Qaya" Mətbuat Yayımı ilə də abunə yazıla bilərsiniz.

**Əlaqə üçün telefon: 012-565-67-13, 012-564-48-96**




## Qazaxda fərdi həyətdə hava-yer tipli raket aşkarlandı

**Aprelin 12-si saat 12:31-də Fövqəladə Hallar Nazirliyinin Böhran Vəziyyətlərində İdarəetmə mərkəzindən və saat 12:37-də Daxili İşlər Nazirliyinin ?102? Xidməti-Zəng mərkəzi sistemindən Ərazilərin Minalardan Təmizlənməsi üzrə Milli Agentliyinə Qazax rayonun Cəfərli kəndi ərazisində mərminin tapılması barədə məlumatlar daxil olub.**

ANAMA-nın mətbuat xidmətindən ONA ttps://ona.az/-ya verilən məlumata görə, Agentliyin xüsusi mobil çevik əməliyyat qrupu və Daxili İşlər Nazirliyinin Qazax rayon Polis Şöbəsinin əməkdaşları dərhal həmin əraziyə göndərilib.

Agentliyin mütəxəssisləri və Qazax rayon Polis Şöbəsinin əməkdaşları tərəfindən birlikdə yuxarıda adı qeyd olunmuş ərazidə 1 ev və həyətyanı sahəyə baxış keçirilib. Yerli əhalinin təhlükəsizliyini təmin etmək məqsədilə ərazi polis tərəfindən mühasirəyə alınıb. Agentliyin mütəxəssisləri tərəfindən aparılan təcili təxirəsalınmaz əməliyyat-axtarış tədbirləri nəticəsində 1 ədəd tərkibində heç bir partlayıcı maddə olmayan (yanmış) hava-yer tipli C-8KOM raketi aşkar olunub, götürülərək Agentliyin mərkəzi məhvetmə ərazisinə daşınıb.

**Raketin ətrafında 150 kv. m əraziyə yerüstü baxış keçirilib, əlavə təhlükəli əşya və qurğu aşkarlanmayıb.**



## Şamaxıda operativ müşavirə keçirilib

**Bu gün Şamaxı şəhərində fövqəladə hallar naziri, general-polkovnik Kəmaləddin Heydərov, Şamaxı Rayon İcra Hakimiyyətinin başçısı Tahir Məmmədov, İsmayıllı Rayon İcra Hakimiyyətinin başçısı Mirdaməd Sadıqov, Ağsu Rayon İcra Hakimiyyətinin başçısı Ənvər Seyidəliyevin iştirakı ilə operativ müşavirə keçirilib.**

ONA-nın yerli bürosunun məlumatına görə, müşavirənin keçirilməsində məqsəd bu il fevral ayının 5-də və 6-da Şamaxı, Ağsu və İsmayıllı rayonlarının ərazisində baş vermiş zəlzələnin nəticələrinin aradan qaldırılması ilə bağlı həyata keçirilmiş tədbirlərin, o cümlədən ziyan çəkmiş vətəndaşların şikayətlərinə baxılması vəziyyətinin, qəzalı evlərin sökülməsi və onların yerində yenilərinin inşası ilə əlaqədar bugünədək görülmüş işlərin, həmçinin, qarşıya çıxan problemlərin aradan qaldırılması yollarının müzakirə edilməsi olub. Müşavirədə Fövqəladə Hallar Nazirliyinin, habelə aidiyyəti dövlət orqanlarının, o cümlədən "Azərenerji" ASC, "Azərişıq" ASC və "Azərsu" ASC-nin məsul şəxsləri də iştirak edib.

Müşavirədə çıxış edən nazir K. Heydərov bildirib ki, Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev baş vermiş zəlzələnin nəticələrinin aradan qaldırılması ilə bağlı zəruri tədbirlərin görülməsi istiqamətində mühüm tapşırıqlar verib və görülən işlər bilavasitə ölkə başçısının nəzarəti altındadır.

**Nazir təmir-tikinti işləri həyata keçirilərkən aidiyyəti qurumların üzərinə düşən vəzifələrinin vaxtında icrasının vacibliyini diqqətə çatdırıb. Qeyd edib ki, kommunikasiya xətləri tikinti başlamamışdan əvvəl operativ olaraq ümumi şəbəkədən ayrılmalı, evlərin tikintisi başa çatdırıldıqdan sonra dərhal qoşulmalıdır. Nazir yeni evlərin tikintisi üçün ayrılmış torpaq sahələrinin sənədləşdirilməsi işinin sürətləndirilməsinin zəruri olduğunu da diqqətə çatdırıb.**


## Qəzet, jurnal və kitab əldə etməyin ən rahat yolu!

Siz sifariş edirsiniz, biz istədiyiniz ünvana çatdırırıq!

Xaricdə və Azərbaycanda nəşr olunan bütün qəzet və jurnallara abunə olmaq, həmçinin Rusiyada və Azərbaycanda nəşr olunan kitabları daha sərfəli qiymətə və daha qısa vaxt ərzində əldə etmək üçün sadəcə zəng etməyiniz kifayətdir.

**Telefon: (012) 434 93 01**


## AŞPA sosial mediaya dair qətnamə qəbul edib

**Avropa Şurası Parlament Assambleyasının "Sosial media: sosial bağların yaradıcısı, yaxud insan hüquqlarına təhlükə" adlı qətnamə qəbul edib.**

"Report"un Qərbi Avropa bürosu xəbər verir ki, qətnamədə mediada sosial bağların yaradılması, siyasi və digər müzakirələrin izlənilməsi, demokratiyanın inkişafında rolu ilə yanaşı onlardan sui-istifadə edildiyi təqdirdə insan hüquqlarına, demokratik institutların fəaliyyətinə zərər yetirə biləcəyi qeyd olunub.

Qətnaməyə əsasən, hökumət orqanları və internet sahəsində fəaliyyət göstərən təşkilatlar birləşərək qanunsuz yayımlara son qoymaq və informasiyaların keyfiyyətini artırmaqla informasiya azadlığı uğrunda birgə çalışmalıdırlar.

AŞPA üzv ölkələri Avropa Şurasının insanların şəxsi məlumatlarının qorunmasına dair konvensiyanı ratifikasiya etməyə çağırıb.

YENİ MÜSAVAT
N 78 (7248) 13 aprel 2019

**Təhsil naziri Ceyhun Bayramov ölkənin gündəminə çevrilən, 162 nömrəli tam orta məktəbin intihar edən 8-ci sinif şagirdi Elina Haciyeva ilə bağlı aparılmış xidməti araşdırmanın nəticələrinin açıqlanmasına dair aprelin 12-də media nümayəndələri ilə görüş keçirib.**



# İntihar baş verən məktəbin direktoru, onun müavini və psixoloq işdən çıxarıldı

## Ceyhun Bayramov: "Ailə üzvləri ilə yaxından əməkdaşlıq edərək, ona psixoloji-mənəvi dəstək göstərilməsinə laqeyd yanaşılıb, məktəb rəhbərliyi hadisədən dərhal sonra adekvat və zəruri tədbirlərin görülməsini də təmin etməyib"

**Musavat.com xəbər verir ki, görüşdə nazir son zamanlar cəmiyyətdə yaranmış suallara aydınlıq gətirib. Nazir əvvəlcə şagird ölümü ilə nəticələnən faciəvi hadisənin təəssüf hissi doğurduğunu vurğulayıb.**



Təhsil naziri qeyd edib ki, baş vermiş hadisənin təfərrüatlarının dərhal araşdırılması məqsədilə Bakı şəhəri üzrə Təhsil İdarəsində komissiya yaradılıb: "Bakı şəhər Prokurorluğunun məlumatına əsasən faktla bağlı Cinayət Məcəlləsinin 125-ci (özünü öldürmə həddinə çatdırma) maddəsi ilə cinayət işi başlanılıb. Xidməti araşdırmanın ilkin nəticələrinə əsasən, məktəbin direktoru Abbasova Sevinc Kamil qızı xidməti araşdırma müddətində öz vəzifəsindən kənarlaşdırılıb. Eyni zamanda hadisənin baş vermə şəraitinin, səbəblərinin və digər təfərrüatlarının kütləvi informasiya vasitələrində və sosial şəbəkələrdə geniş müzakirə edildiyini, bəzi hallarda bir-birinə zidd olan və mötəbərliyi yoxlanılmamış məlumatlar əsasında fərziyyə və ehtimalların irəli sürüldüyünü, baş vermiş hadisənin həssaslığını və faktla bağlı cinayət işi üzrə istintaq tədbirlərinin aparıldığını nəzərə alaraq, müvafiq komissiya tərəfindən aparılan xidməti araşdırma başa çatanadək nəticələrin ictimaiyyətə açıqlanmaması zərurəti yaranıb".

Media nümayəndələrinin diqqətinə çatdırılıb ki, aparılmış xidməti araşdırma nəticəsində Bakı şəhəri 162 nömrəli tam orta məktəbin direktoru (Abbasova Sevinc Kamil qızı), tərbiyə işləri üzrə direktorun müavini (Məhərrəmova Lalə Arif qızı), sinif rəhbəri (Mehdiyeva Çimnaz Hacıağa qızı) və məktəbin psixoloqunun (Ağayeva Könül İsmayıl qızı) əmək müqaviləsində və aidiyyəti normativ sənədlərdə nəzərə tutulmuş bir sıra vəzifə funksiyalarının icrasını təmin etmədikləri məlum olub.

**Nazir vurğulayıb ki, məktəbin 8-ci sinif şagirdi Hacıyeva Elina Ədalət qızı və onun valideynləri ilə müvafiq izahat işlərinin aparılması lazımi səviyyədə təşkil edilməyib, psixoloqun rəyinə əsasən vaxtaşırı olaraq özünə qapanan şagirdə qarşı xüsusi həssaslıqla yanaşılmayıb, şagirdlə əvvəllər olan ünsiyyətlərdə onun davranış xüsusiyyətləri, ruhi-emosional vəziyyətinin səbəbləri ilə dərindən maraqlanılmayıb:** "Ailə üzvləri ilə yaxından əməkdaşlıq edərək, ona psixoloji-mənəvi dəstək göstərilməsinə laqeyd yanaşılıb. Şagirdin sinfə və ya məktəbə bu və ya digər səbəbdən uyğunlaşmaması, bunun nəticəsində onun digər şagirdlərlə, sinif rəhbəri və müəllim heyəti ilə səmimi ünsiyyətinin qurulmaması, baş verənlərin şagirdin yeniyetmə dövrünə təsadüf etdiyindən davranışına təsir etməsi təlim-tərbiyə prosesində nəzərə alınmayıb. Hadisənin baş verdiyi gün məktəb rəhbərliyinin məsuliyyətsizliyi səbəbindən məktəbdə növbətçilik təmin olunmayıb, bununla yanaşı, məktəb rəhbərliyi hadisədən dərhal sonra adekvat və zəruri tədbirlərin görülməsini də təmin etməyib".

Tədbirdə bildirilib ki, xidməti araşdırmanın məlumatları nəzərə alaraq, Bakı şəhəri 162 nömrəli tam orta məktəbin direktoru və tərbiyə işləri üzrə direktorun müavini ilə əmək müqavilələrinə xitam verilməsi, şagirdin təhsil adlığı sinfin rəhbərinə qarşı müvafiq intizam tədbirlərinin görülməsi, məktəbin psixoloqunun işdən kənarlaşdırılması, məktəbə təcrübəli psixoloqun təyin edilməsi qərara alınıb.

**Nazir qeyd edib ki, məktəb həyatını, bütövlükdə məktəbin müəyyən edilmiş hədəflərə yönələn fəaliyyətini təhsil prosesi iştirakçılarının qarşılıqlı əməkdaşlığını təmin etmədən təsəvvür etmək mümkün deyil:** "Təhsil prosesində keyfiyyətə nail olmaq üçün "məktəb-valideyn", "müəllim-şagird", "məktəb-müəllim-valideyn" əlaqələrinin düzgün tənzimlənməsi zəruri şərt hesab olunur. Bu prosesdə hər bir tərəf öz məsuliyyətini dərk etməli, onu icra etməlidir. Məktəb rəhbərliyi təhsil müəssisəsində sağlam mənəvi-psixoloji mühitin formalaşması və sabit saxlanması, təhsilalanların sosial bacarıqlarının artırılması istiqamətində müəllim və valideynlərlə birlikdə müvafiq iş aparmalıdır. Təlimdə çətinlikləri, emosional, davranış və digər problemləri olan təhsilalanlarla qrup və fərdi fəaliyyətlər planlaşdırılmalı, psixoloji problemlərinin yaranma riski yüksək olan təhsilalanların ailə və sosial vəziyyəti ilə tanış olunmalıdır. Həmçinin, valideynlərlə mütəmadi görüşlər və maarifləndirmə tədbirləri keçirməli, sosial-məişət çətinlikləri olan təhsilalanların təhsili və inkişafının dəstəklənməsi məqsədilə məktəb əsaslı inkişaf planları hazırlamalı və ailələrlə birlikdə icra olunmasını təmin etməlidir".

Tədbirdə həmçinin, bu baxımdan məsələyə daha sistemli yanaşaraq, rayon, şəhər təhsil şöbələrinin, təhsil müəssisələrinin rəhbərlərinə sağlam mənəvi-psixoloji və təhlükəsiz mühitin yaradılması, təhsilalanlarda müsbət davranış modelinin formalaşdırılması, ailə-məktəb münasibətlərinin düzgün tənzimlənməsi, bu istiqamətdə məktəb rəhbərliyi və müəllim kollektivinin məsuliyyətinin artırılması istiqamətində zəruri tədbirlərin həyata keçirilməsinin, bu məsələlərə bağlı ümumtəhsil müəssisələrində olan mövcud vəziyyəti təhlil edərək, nəticələri barədə hesabatı, müvafiq sahədə aparılan işlərin təkmilləşdirilməsi ilə bağlı təkliflərin 30 gün ərzində Təhsil Nazirliyinə təqdim edilməsinin tapşırıldığı da bildirilib.

**Qeyd olunub ki, nazirlik tərəfindən bu sahədə bəzi yeniliklərin edilməsi planlaşdırılır. O cümlədən, məktəbdə şagirdlər arasında münasibətlərin tənzimlənməsi, sağlam mühitin yaradılması istiqamətində ictimai müzakirələr və məsələyə diqqətin cəlb edilməsi çox vacibdir. Yeniliklər arasında həmçinin məktəbdə bu və ya digər zorakılığa məruz qalmış şagird və ya valideyn tərəfindən birbaşa olaraq, təhsil idarəetmə orqanlarında bu mövzu ilə bağlı yaradılacaq "qaynar xətt"lərə müraciət etmək imkanı yaradılacaq.**

❑ **Əli RAİS,**
**Musavat.com,**

# "Şeyximiz təkcə Azərbaycanda deyil, Qafqazda çox nüfuzlu bir insandır"

## Bəxtiyar Sadıqov: "Bəzən şeyximizə çox haqsız hücumlar da olub"

**Ölkə prezidenti "Şeyxülislam Allahşükür Paşazadənin anadan olmasının 70, şeyxülislamlıq fəaliyyətinin 40 illik yubileyinin qeyd edilməsi haqqında" sərəncam imzalayıb.**



Sərəncamda deyilir ki, Şeyxülislam Allahşükür Paşazadə bütün həyatı boyu cəmiyyətdə mənəvi-əxlaqi dəyərlərin və milli həmrəyliyin bərqərar olunması yolunda səmərəli fəaliyyət göstərmiş, yaxın tarixi keçmişdə xalqımızın yaşamış olduğu taleyüklü hadisələr zamanı həm dini rəhbər, həm də ictimai xadim kimi yüksək vətənpərvərlik və əsl vətəndaş mövqeyi nümayiş etdirmişdir. O, ölkəmizdə beynəlxalq hüquq normalarına və mütərəqqi tarixi ənənələrə əsaslanan dövlət-din münasibətlərinin formalaşması, Azərbaycan həqiqətlərinin dünya ictimaiyyətinə çatdırılması və təbliği sahəsində səmərəli xidmətlər göstərməkdədir.

Sərəncamda DQİDK QMİ-nin təkliflərini nəzərə almaqla, Şeyxülislamın anadan olmasının 70, şeyxülislamlıq fəaliyyətinin 40 illik yubileyinə həsr edilmiş tədbirlər planını hazırlayıb həyata keçirmək, Nazirlər Kabinetinə bu sərəncamdan irəli gələn məsələləri həll etmək tapşırılıb.

"Yeni Müsavat"a danışan **"Azərbaycan" qəzetinin baş redaktoru, deputat Bəxtiyar Sadıqov** bildirib ki, qəzetlərində şeyxlə bağlı rəhbərlik etdiyi mətbu orqanda materiallar dərc olunacaq:

"Əvvəla onu deyim ki, bizim dinimiz sovet dövründə repressiyaya məruz qalsa da, bizi hələ orta məktəbdən etibarən ateist ruhda tərbiyə etməyə çalışsalar da, hamımız ailə ənənələri hesabına Allahı ürəyimizdə qoruyub, saxladıq. Bu gün də hamı Allahı tanıyır, müstəqilik, ibadətgahlarımız mövcuddur. Azərbaycanda bu gün məscidlərimiz də fəaliyyət göstərir. Müstəqilliyimiz dövründə dinimizin qorunub saxlanmasında, inkişafında şeyximizin böyük xidmətləri olub. Şeyximiz təkcə Azərbaycanda deyil, Qafqazda çox nüfuzlu bir insandır. Biz həmişə onun bütün fəaliyyətində dövlətçilik prinsipinin qorunması, Azərbaycan xalqının milli-mənəvi dəyərlərinə hörmət , bu dəyərlərin yüksək səviyyədə saxlanması, qorunmasını görmüşük. Sonsuz dərəcədə bu, bizi sevindirir. Bəzən şeyximizə çox haqsız hücumlar da olub. Eyni zamanda bəzi hallarda əndazədən çıxan addımlar da atılıb. İnsan baxıb görür ki, digər dinlərin nümayəndələrini həmin millətlər necə qoruyurlar, uca tuturlar. Bizdə isə bəzən çalışılır ki, hansısa xoşa gəlməyən bir şey yapışdırıb, onu şişirdək. Bütün bunlar məni hər zaman düşündürüb, narahat edib. Bu gün isə çox şadam ki, dövlət başçısı cənab İlham Əliyev, şeyximizin 70 illik yubileyi münasibətilə, şeyx seçilməsinin 40 illiyi ilə bağlı xüsusi sərəncam imzalayıb. Bu, mənim şəxsən ürəyimdəndir. Şeyximizi mən də təbrik edəcəyəm. Biz qəzetdə də xüsusi yazılar dərc edəcəyik. Hələ ki, iki müəllifin yazısını nəzərdə tutmuşuq. Həmin sərəncama uyğun olaraq da bir sıra tədbirlərin keçirilməsi nəzərdə tutulur. Bu tədbirlər də çalışacağam ki, qəzetimizdə verilsin. Azərbaycanlı, İslam dininə hörmət edən kollektiv kimi biz də öz şeyximizin ad günündə bunları işıqlandırmaqla həm ona hədiyyə edəcəyik, həm də tədbirlərə informasiya dəstəyi verəcəyik".

**Ağ Partiya sədri Tural Abbaslı** bildirib ki, Şeyxülislamlıq institutunun Bakıda yerləşməsi önəmlidir:

"Azərbaycanın regionda, islam dövlətləri arasında söz sahibi olmasında özünün xüsusi rolu var. Təbii ki, bu xüsusda Allahşükür Paşazadənin də rolu böyükdür. Şeyxin fəaliyyətində təqdir etdiyim və etmədiyim nüanslar da var. Ancaq ümumilikdə Allahşükür Paşazadə və onun təşkilatı 4-cü prezidentlə işləyir. Deməli, hökumət bundan faydalı nələrsə görüb. Bir insan kimi təbii ki, istənilən şəxsə can sağlığı, uzun ömür arzulayıram. Eləcə də Allahşükür Paşazadəyə. 70 il az ömür deyil. İnşallah tarix hamımızın qiymətini verəcək. Eləcə də Allahşükür Paşazadə ilə bağlı tarixin qiyməti olacaq. Bizdə partiya olaraq kimlərəsə xüsusi təbrik yazmaqla bağlı hələ ki, ənənə yoxdur. Ancaq ümumən partiya adından təbrikin əleyhinə deyiləm. Təbii ki, təbrik edə bilərik. Arzu edirik ki, onun və təşkilatının fəaliyyəti hər zaman Azərbaycana faydalı olsun".

❑ **Əli RAİS,**
**"Yeni Müsavat"**

YENİ MÜSAVAT
N 78 (7248) 13 aprel 2019

**Ermənistanın baş naziri Nikol Paşinyan İrəvanda dedikləri azmış kimi, Avropada da işğalçı siyasətdən əl çəkməyəcəyini nümayişkaranə şəkildə bəyan etdi. Avropa Şurasının baş katibi Yaqlandla birgə təşkil etdiyi mətbuat konfransında erməni baş nazir dedi ki, onun bəyanatları və müdafiə naziri David Tonoyanın şərhlərində ziddiyyətli heç bir şey yoxdur.**

# Moskva görüşü danışıqların sonu ola bilər-II Qarabağ savaşı an məsələsidir

Ermənistan hökumətinin ziddiyyətli və təhrikçi mövqeyi Azərbaycan üçün başqa seçim imkanı qoymur; **Rəsmi Bakı:** "Ermənistan işğalçı qüvvələri Azərbaycan ərazilərindən geri çəkilmədən və oradan zorla qovulmuş azərbaycanlı məcburi köçkünlər geri qayıtmadan sülh mümkün deyil"; general Aydəmirov: "Bu dəfə elə zərbə endirmək lazımdır ki, daha heç bir zaman özlərinə gəlməsinlər"

Qeyd edək ki, N.Paşinyan bu sözləri Tonoyan ABŞ-da olarkən Azərbaycanı yeni ərazilərin işğalı ilə təhdid etməsinə reaksiyasında bildirib. N.Paşinyan Ermənistanda mətbuatın sualına cavabında demişdi ki, əgər Tonoyan başqa mövqedən çıxış, etsəydi, onu vəzifəsindən azad edərdi. Növbəti dəfə isə Ermənistanın hökumət başçısı Brüsseldə təcavüzkar siyasətinə haqq qazandırmağa çalışdı. Təəssüf ki, bu dəfə də Avropa Şurasının rəhbərliyindən Ermənistan rəhbərliyinin iddialarına təkpi göstərilmədi.

Düzdür, N.Paşinyan beynəlxalq aləmi çaşdırmaq üçün Avropa səfərində sülhdən də danışıb. İşğalçı ölkənin baş naziri hərbə-zorba gələndən sonra "sülh carçısı" statusunda görünməyə çalışıb.

Rəsmi Bakı isə Paşinyana artıq cavab verib. Azərbaycan Xarici İşlər Nazirliyi Ermənistanın baş nazirinin Strasburqda jurnalistlərə açıqlamasında "təklifimiz Azərbaycanın Qarabağ məsələsində istifadə etdiyi gücdən istifadə, gücdən istifadə ilə hədələmə və hərbi ritorikadan imtina etməsidir" fikrinə münasibət bildirib. "Bütün beynəlxalq ictimaiyyət Azərbaycanın beynəlxalq tanınmış sərhədləri çərçivəsində ərazi bütövlüyünü tanıyır və BMT TŞ-nin 1993-cü il tarixli 4 qətnaməsində Dağlıq Qarabağın Azərbaycanın ayrılmaz tərkib hissəsi olduğu vurğulanaraq, işğalçı erməni qüvvələrinin Azərbaycanın işğal olunmuş bütün ərazilərindən dərhal, tam və qeyd-şərtsiz çıxması tələb olunur. Gücdən istifadə olunmamasını təklif edən erməni baş nazirini bölgədə davamlı sülh, təhlükəsizlik və rifahın təmin olunması naminə öz ölkəsinin silahlı qüvvələrini Azərbaycanın işğal olunmuş ərazilərindən çıxarılması istiqamətində beynəlxalq ictimaiyyətin tələblərinə uyğun olaraq təxirəsalınmaz addımlar atmağa çağırırıq", - XİN bəyan edib.

Lakin Ermənistanın konstruktiv mövqedən çox uzaq olduğunu elə son müşahidələr də təsdiqləyir. İşğal zonasında erməni hərbi birləşmələrinin hərbi təlimlər keçirməsi, bir əsgərimizin şəhid olması işğalçının əsl mahiyyətini ortaya qoyur.

Dağlıq Qarabağ münaqişəsinin həll prosesi çərçivəsində aparılan danışıqların növbəti mərhələsi isə 15 apreldə baş tutacaq. Münaqişə tərəflərinin xarici işlər nazirləri - Elmar Məmmədyarov və Zoqrab Mnatsakanyan Moskvada bir araya gələcək.

Martın 29-da keçirilən İlham Əliyev-Nikol Paşinyan görüşündən sonra prosesdəki rolunu yenidən aktivləşdirən Rusiyanın növbəti görüşə ev sahibliyi etməsi diqqət çəkir. **Politoloq, sabiq dövlət müşaviri Qabil Hüseynli** publika.az-a açıqlamasında bildirib ki, Moskva görüşündə konkret nəticələrin əldə olunması müəmmalıdır: "Çünki Ermənistan tərəfindən hədsiz dərəcədə "rəngarəng" fikirlər səsləndirilir. Məsələn, Paşinyanın həyat yoldaşı Amerikada çıxış edir və deyir ki, müharibə başlasa, oğlu ilə birlikdə əlində avtomat tutub cəbhəyə gedəcək. İndi gəl, bu ifadədəki məntiqi aç və bu qadının nə söyləmək istədiyini başa düş. Halbuki bu qadın erməni qadınları adından sülh platformaları təşkil edir, sülhə çağırışlar edir. O biri tərəfdə isə əlinə silah alıb Azərbaycanın yeni torpaqlarının istilası üçün oğlu ilə birlikdə hücum çəkmək niyyətini açıqlayır. Paşinyan Vyana görüşündən sonra dedi ki, danışıqlarda ciddi məsələlər müzakirə olunmayıb. Əsas məsələ qondarma Dağlıq Qarabağın danışıqlar prosesinə qatılmasını müzakirə etmək idi. Gözünün içinə qədər yalan danışan bu adam bu görüşdən sonra da yeni moizələr söyləyə bilər. Ağlına gələn istənilən fikirlərdən danışa bilər. Bəlkə Rusiya öz roluna diqqət çəkmək, danışıqların iplərinin onun əlində olduğunu isbat etmək üçün Lavrovun simasında prosesə bir qədər praqmatik görkəm verə, onu nəticəli danışıqlar məcrasına yönəldə bilər. Doğrudur, biz "Lavrov planı"ndan, Rusiyanın istəklərindən elə də ciddi nəticələr gözləyə bilmərik. Amma hər halda, Rusiya dünya ictimai rəyini müəyyən qədər təmin etmək üçün tərəflərin bəlli bir razılığa gəlməsinə səy göstərə bilər. Rusiyanın hər zaman dilində əzbər tutduğu şüar 5 rayonun geri qaytarılması, onun əvəzində Dağlıq Qarabağ üçün müvəqqəti statusun müəyyən edilməsidir. Azərbaycan tərəfi bunu heç cür qəbul edə bilməz. Əgər bu baş verəcəksə, yenə də konsensusa nail olmaq mümkün olmayacaq. ABŞ və Avropa dövlətlərinin bir çoxu bir məsələdə haqlıdır: qeyd-şərtsiz danışıqlara getmək lazımdır. Bütün keçmiş sovet məkanına daxil olan bütün münaqişələrdə eyni yanaşmalardan istifadə etmək lazımdır"




Danışıqların sülhə apardığına heç ermənilərin özləri də inanmır və savaş riskinin böyük olduğunu düşmən də etiraf edir. "Dağlıq Qarabağ münaqişəsi müharibə ilə həll ediləcək. Proses bizim təhlükəsizliyimizin möhkəmləndirilməsi istiqamətində getməlidir. Heç kim indiyə qədər danışıqlarla əraziləri verməyib, yaxud almayıb". Bu barədə erməni politoloq Levon Şirinyan deyib. (Publika.az) Şirinyan ardınca sərsəm iddialarını davam etdirərək deyib ki, müharibə başlasa, erməni hərbi birləşmələri Kür-Araz çaylarına qədər əraziləri tutacaq.

**Qeyd edək ki, "komandos" ləqəbli general Arkadi Ter-Tadevosyan bir neçə gün əvvəl Azərbaycanın digər ərazilərini işğalla hədələyən müdafiə naziri David Tonoyanı səriştəsizlikdə günahlandırmışdı.** "Bu, onun təcrübəsizliyindən və səriştəsizliyindən irəli gəlir. Əgər sənin xarici diplomatiyan istənilən səviyyədə deyilsə, hansı hərbi əməliyyatlardan danışmaq olar? İkincisi, bu gün Ermənistan ordusu hücum əmrini yerinə yetirmək gücündə deyil. Mən Tonoyana məsləhət görərdim bu cür bəyanatlarla özünü gülünc vəziyyətə saxlamasın. Bu yaxınlarda Meğrideki Aqarak batalyonunda nələrin yaşandığı hamınıza bəllidir. Bunlar sadəcə qığılcımdır"-erməni general demişdi.

Dağlıq Qarabağ danışıqlarının yekunlarını şərh edən Chatham House Kral Araşdırma Mərkəzi təhlilini yayıb. Məqalənin müəllifi Lorens Broersə qeyd edib ki, Azərbaycanla Ermənistan arasındakı hazırkı sülh prosesin mahiyyətini danışıqların 3 müzakirə planı izah edə bilər. Birinci planı azərbaycanlılarla ermənilər arasında təmasların bərpası kimi etimadın artırılması üzrə tədbirləri nəzərdə tutur. Atəşkəsin monitorinqinə daha çox ehtiyatların ayrılması ikinci gündəmə aid olan məsələlər arasında qeyd olunur. Bu, Ermənistan və Azərbaycan liderlərindən gələcək manevr imkanlarını daralda bilər "siyasi yatırım" tələb edir. Planda olan üçüncü məqam erməni qüvvələrinin "işğal olunmuş ərazilərdən" çıxarılması, qaçqınların qaytarılması və Dağlıq Qarabağın statusuna dair "böyük sülh sazişi" üzrə addımları əhatə edir. Təhlilçinin fikrincə, danışıqlar ikinci gündəmdə ilişib qalıb. İrəvansa israr edir ki, 3-cü gündəmə aid "substantiv danışıqlar" yalnız təhlükəsizlik tədbirlərinin təmin edilməsindən sonra baş tuta bilər. Təhlilə əsasən, 3-cü gündəmə keçmək Nikol Paşinyanın islahatlar layihəsini zərbə altına qoya bilər, çünki ərazi güzəştləri siyasi cəhətdən təhlükəli addımdır. Danışıqları bloklamağın da öz mənfi fəsadları ola bilər.

Ermənişünas alim Qafar Çaxmaqlı da "Yeni Müsavat"a açıqlamasında düşmənin məkrindən və savaş təhlükəsinin real olmasından danışdı: "Mən şəxsən Ermənistanın yeni rəhbərliyindən fərqli yanaşma gözləmirəm. Ermənistanda yönətimdə kim olur- olsun, Azərbaycana qarşı siyasət dəyişməyəcək, işğal olunmuş ərazilərin geri verilməsindən söhbət belə getməyəcək. Danışıqlar yolu ilə Qarabağ məsələsinin həlli perspektivi heç vaxt olmayıb, bundan sonra da nəsə gözləmək özünü aldatmaqdan başqa bir şey deyil. XİN başçıları da , dövlət başçıları da indiyədək sayını itirdiyimiz qədər görüşlər keçiriblər. Ermənistan açıq şəkildə iddia edir ki, Dağlıq Qarabağ onlara məxsusdur və bu mövqeyindən heç bir addım belə çəkilməyib. Biz də eyni cür - Dağlıq Qarabağın bizim olduğunu deyirik. Neçə ki, Ermənistanın məcbur edəcək addımlar atılmayıb, bu ölkə islah olunan deyil. Bu gedişlə nə gözləmilir? Əlbəttə, başlanacaq müharibə də Qarabağın taleyini həll edəcək".

**Ehtiyatda olan zabit, general Yaşar Aydəmirov** "Yeni Müsavat"a bildirdi ki, Qarabağda böyük savaşın başlanması an məsələsidir: "Sizi əmin edirəm ki, bu, hər an baş verə bilər. Ermənistanın baş nazirinin və müdafiə nazirinin son çıxışları, həmçinin Qarabağdakı iri miqyaslı hərbi təlimləri də başqa varianta yer qoymur. Artıq bizim səbir kasamız dolmaq üzrədir. Ona görə də Ermənistana kəskin cavab verməyin vaxtı gəlib çatıb. "Keçinin buynuzu qaşınanda çobanın çomağına sürtər" deyiblər. Ermənilərin davranışları da o məsələyə bənzəyir. Şübhə etmirəm ki, bizim ordu düşmənə tutarlı cavab verəcək, görək onda kimə yalvaracaqlar? Humanitar yardımla aldıqları silahlarlamı bizim qarşımıza çıxacaqlar?" General dedi ki, erməni tərəf Azərbaycanı qıcıqlandırmaqla özünə qəbir qazır: "Aprel döyüşlərində çaşdılar, dərslərini aldılar. Bir az özlərinə gələndən sonra yenə də çərənləməyə başlayıblar. Bu dəfə elə zərbə endirmək lazımdır ki, artıq heç bir zaman özlərinə gəlməsinlər".

**Yazı çapa hazırlanarkən rəsmi Bakının növbəti mövqeyi yayıldı.** XİN-in mətbuat xidmətinin açıqlamasında bildirilib ki, Paşinyanın münaqişənin həlli kontekstində tez-tez bəyan etdiyi "sülh mühitinin yaradılması" Ermənistan işğalçı qüvvələri Azərbaycan ərazilərindən geri çəkilmədən və oradan zorla qovulmuş azərbaycanlı məcburi köçkünlər geri qayıtmadan mümkün deyil: "Ermənistan rəhbərliyi bunu aydın şəkildə başa düşməlidir. Əgər "A" deyilirsə, "B" də deyilməlidir. Bunlar ayrılmaz səbəb-nəticə əlaqəsində olan məqamlardır". XİN qeyd edib ki, bütün bəlaların kökündə duran səbəb məhz Ermənistanın Azərbaycana qarşı yürütdüyü təcavüzkar və işğalçı siyasətidir. "Nəticələr isə, sülh və qarşılıqlı etimad mühitinin yaradılması da daxil olmaqla yerdə qalan digər məsələlərdir. Bu, bir aksiomdur"-XİN-in bəyanatında deyilir.

**Əslində rəsmi Bakı Ermənistana "yol xəritəsi"ni təqdim edib. Xatırladaq ki, Azərbaycan prezidenti bu günlərdə müharibənin bitmədiyini söyləmişdi. Müdafiə naziri Zakir Həsənovsa "Tonoyanla İrəvanda görüşəcəyik"-xəbərdarlığını edib. E.Məmmədyarov isə deyib ki, "mənimlə anlaşmayan Zakir Həsənovla anlaşmalı olacaq". İndi seçim işğalçı ölkənindir...**

**❑ Elşad PAŞASOY,**
**"Yeni Müsavat"**

YENİ MÜSAVAT
N 78 (7248) 13 aprel 2019

# Aİ ilə saziş Azərbaycan iqtisadiyyatına nələr vəd edir...

## Ekspert: "Bu, sahibkarlar üçün yeni imkanlar açacaq, Ümumdünya Ticarət Təşkilatına üzvlük prosesini sürətləndirəcək"

**Avropa İttifaqı (Aİ) ilə Azərbaycan arasında yeni əməkdaşlıq sazişi gələn ay imzalana bilər. Aprelin 4-də Brüsseldə tərəflər arasında keçirilən müzakirələrdən sonra Azərbaycan xarici işlər naziri Elmar Məmmədyarov və Aİ-nin Xarici Əlaqələr və Təhlükəsizlik Siyasəti üzrə ali komissarı Federika Mogerini bildiriblər ki, saziş sənədinin 95 faizi razılaşdırılıb, 5 faizi isə qismən razılaşdırılıb. Aİ və Azərbaycan yeni saziş üzrə danışıqları başa çatdırır, danışıqlar yekun mərhələdədir və tezliklə başa çatacaq.**

Qeyd edək ki, Avropa İttifaqı ilə tərəfdaşlıq sazişinin demək olar ki, bütün sahələri əhatə edəcəyi bildirilir. Bu sırada iqtisadi sahədə əməkdaşlıq məsələləri də var. Bu məsələlərdən biri kimi Azərbaycanın Ümumdünya Ticarət Təşkilatına üzvlüyünün qoyulduğu bildirilir. Saziş Azərbaycana iqtisadi baxımdan hansı dvidentlər gətirə bilər? Sualı cavablandıran **iqtisadçı-ekspert, İqtisadi və Sosial İnkişaf Mərkəzinin rəhbəri Vüqar Bayramov** bildirir ki, Avropa İttifaqı Azərbaycan üçün vacib tərəfdaşlardan biridir: "Azərbaycanın xarici ticarət dövriyyəsinin 40 faizindən yuxarısı Avropa Birliyinin payına düşür. Xüsusilə Azərbaycanın ixracatında Avropa Birliyi əsas tərəfdaşdır. Eyni zamanda Azərbaycan da Cənubi Qafqaz ölkələri ilə müqayisədə Avropa Birliyi üçün vacib tərəfdaşlardan biri hesab olunur. Birliyin Cənubi Qafqaz ölkələri olan 15 milyard dollarlıq xarici ticarət dövriyyəsinin 75 faizi Azərbaycanın, qalan 25 faizi digər iki ölkənin payına düşür".

**Ekspertin fikrincə, sazişin imzalanması iqtisadi baxımdan da Azərbaycan üçün vacibdir:** "İlk növbədə bu, Azərbaycan məhsullarının Avropa Birliyi bazarına ixracı üçün əlverişli şərait yaradacaq. İxrac prosesi asanlaşacaq, prosedurlar azalacaq. Azərbaycanın Ümumdünya Ticarət Təşkilatına üzvlüyü də çox vacibdir. Xüsusilə də Avropa Birliyi ilə dərinləşmiş azad ticarət anlaşmasının imzalanması üçün Azərbaycanın Ümumdünya Ticarət Təşkilatına üzv olmasına ehtiyac var. Avropa Birliyi ilə tərəfdaşlıq sazişi Azərbaycan sahibkarları üçün yeni imkanlar açması baxımından da mühüm əhəmiyyət kəsb edir. Bundan əlavə, saziş imzalandıqdan sonra Azərbaycan Gürcüstan və Ukrayna kimi Avropa Birliyi ilə vizasız gediş-gəliş rejiminə keçə bilər. Bu isə sadə vətəndaşlarla yanaşı, sahibkarlar, iş adamları üçün də böyük üstünlük deməkdir".


Vüqar Bayramov

V.Bayramov deyir ki, artıq Belarus da ÜTT-yə üzvlük istiqamətində ciddi irəliləyişlər əldə edib: "Şərq Tərəfdaşlığı Proqramına üzv olan ölkələrdən yalnız Belarus və Azərbaycan Ümumdünya Ticarət Təşkilatının üzvü deyil. Gözlənilir ki, bu ilin dekabrında Belarus üzvlüyə qəbul olunsun. Bu baxımdan, Azərbaycanın bu təşkilata ən qısa zamanda üzv olması çox vacibdir. Bu, Azərbaycanın neft gəlirlərinin azalmağa başladığı 2014-cü ildən sonra daha da aktuallaşıb. Çünki Ümumdünya Ticarət Təşkilatına üzvlük yalnız daxili bazarın xarici məhsullar üçün açılması deyil, eyni zamanda Azərbaycan məhsullarının xarici bazarlara maneəsiz çıxarılması imkanlarının yaranması deməkdir. Nəzərə alsaq ki, ölkəmiz qeyri-neft ixracatının genişləndirilməsi yolunu tutub, görərik ki, Ümumdünya Ticarət Təşkilatına üzvlük bu prosesə ciddi təkan verə bilər. Buna görə də ümid edirik ki, Avropa Birliyi ilə tərəfdaşlıq sazişi ilə bərabər Ümumdünya Ticarət Təşkilatına üzvlük prosesi də yekunlaşacaq".

Mərkəz rəhbərinin sözlərinə görə, Avropa Birliyi ilə saziş Azərbaycanın Avropadan daha böyük həcmdə texniki yardım almasına imkan verəcək: "Bu yardım çox sahələri əhatə edə bilər. Saziş eyni zamanda Azərbaycan iqtisadiyyatına Avropa kapitalının cəlbi imkanlarını artıracaq, idarəetmə sahəsində qabaqcıl təcrübəni mənimsəmək üçün şərait formalaşdıracaq".

❑ **DÜNYA,**
**"Yeni Müsavat"**

# "Sosial şəbəkələrdə vəziyyət olduqca təhlükəlidir, tədbirlər görülməlidir"

## Ekspert: "İlk növbədə öz davranışımıza diqqət etməliyik, sonra xarici qüvvənin izini axtara bilərik"

**Son günlərdə sosial şəbəkələrdə, xüsusilə də azərbaycanlıların ən çox maraq göstərdiyi facebookda müxtəlif mövzular ətrafında kəskin, aqressiya dolu müzakirələr gedir. Bu müzakirələr fonunda insanlar müxtəlif dövlət qurumlarını hədəfə alıb, tənqid edirlər. Yaxud da başqa bir məsələyə görə hansısa ictimai şəxslərin üzərinə toplu halda hücum edib, kütləvi şəkildə təhqirə məruz qoyurlar.**


Mübariz Əhmədoğlu

Sosial şəbəkələrdə sanki bir kütlə psixologiyası hökm sürür. Hər hansı bir ictimai şəxsə qarşı yazılan sərt, söyüşlü ifadələrlə faktiki olaraq onu mənəvi terrora məruz qoyurlar. Söyüşçü dəstə hətta hədəfə aldıqları şəxsin yaxınlarını da söyməkdən çəkinmir.

Məlumdur ki, idarəçilik aparatında həyata keçirilən islahatlar fonunda ölkədə xeyli müsbət dəyişikliklər baş verir. Aparılan sorğulardan belə aydın olur ki, dəyişikliklərdən əhalinin böyük bir qismi razıdır. Bəs bütün bunların fonunda sosial şəbəkələrdə yaranmış mənzərənin səbəbi nədir? Burada xarici qüvvələrin, kənar təsirlərin rolu ola bilərmi?

"Yeni Müsavat"a danışan **politoloq Mübariz Əhmədoğlu** hesab edir ki, problemin kökünü özümüzdə, davranış qaydalarımızda axtarmalıyıq. Politoloqun fikrincə, xüsusilə də cəmiyyətdə bu cür halların yaranmasına səbəb, televiziya kanallarında gedən bəzi verilişlərdir: "Biz ilk növbədə öz davranışımıza diqqət etməliyik, sonra xarici qüvvənin izini axtara bilərik. Necə deyə bilərik ki, filan televiziyanın rəhbərinə əxlaqsız birinə aparıcılıq vəzifəsi verməyi xaricdən hansısa qüvvə tapşırıb. Bu il ölkədə Nəsimi ili elan olunub. Baxırsan ki, bir nəfər Nəsimini aşağılayıb, amma onu bütün televiziyalar efirə çıxardıb, danışdırır. Sanki bəzi televiziyalar onu gözləyir ki, kimsə bizim əxlaqımızı, mənəviyyatımızı təhqir etsin. Bu məsələdə hökumətin xüsusi göstərişi olmalıdır. Azərbaycan qadınları dünyanın ən fenomenal xanımlarıdır. Bir neçə il öncə xarici ölkə təmsilçiləri ilə çox sıx təmasda olmuşam. Komandamızda öz xanımlarımız da olub və diqqət etmişəm ki, bizim xanımlar bütün yaxşı mənalarda xaricilərdən fərqlənib. Bu qədər üstün parametrlərə sahib olan qadınlarımız varkən, nə üçün ancaq pis həyat yolunu seçənləri önə çəkirlər? Ona görə də hakimiyyət addım ataraq, ilk növbədə televiziyalara göstəriş verməlidir. Çünki televiziyaların fəaliyyəti, sosial şəbəkələrdə bəzi müzakirələr cənab prezident İlham Əliyevin siyasətinə, atdığı addımlara qarşı təxribatdır. Bu gün tərbiyəsiz gənc yetişirsə, sabah onlar pozğunluğu təkcə həyatlarına deyil, siyasətə də tətbiq edəcəklər. Ona görə də ilk növbədə rəsmilərdən addım gözləyirəm".

**M.Əhmədoğlu bildirib ki, bu gün sosial şəbəkələr və televiziyalar oxşar vəziyyətdədir:** "Televiziyada verilənləri sosial şəbəkədə yayırlar, sosial şəbəkədə yayılanları televiziya davam etdirir. Təəssüf ki, sanki əxlaqsızlıq korporasiyası yaranıb. Bu, çox pis haldır. Sosial şəbəkədə baş verənlərin cəmiyyətdə də artıq inikasını görməkdəyik. Şəxsən mən 2 gün öncə evə gedən zaman şəhərin mərkəzində gənc qızların siqaret çəkdiyini gördüm. Onlara irad bildirdiyimdə, həmin uşaqlara mənə cavab da qaytardılar. Bu kimi nümunələr artıq ümumi vəziyyətdən, gələcəkdən xəbər verir. Əgər bu vəziyyəti dəyişməsək, gələcək daha pis olacaq. Sosial şəbəkələrdə aparılan müzakirələrə diqqət etdikdə görürük ki, necə əxlaqsız vəziyyət yaranıb. Hamısının da səbəbi yuxarıda qeyd etdiyimiz vəziyyətlə bağlıdır. Hal-hazırda Azərbaycana ermənı qədər düşmən olan bəzi kanalların proqramları, sosial şəbəkələrdə aparılan buna bənzər müzakirələrdir. Çünki bu gün erməni arzu edir ki, Azərbaycan cəmiyyəti deqradasiyaya uğrasın, dağılsın, ailə institutumuz məhv olsun. Bütün bunlar bizim düşmənimizin arzusudur. Ancaq baxırıq ki, televiziyalarda verilənlər, sosial şəbəkələrdə açılan müzakirələr elə cəmiyyətimizi uçuruma aparır. Düşmən bizim milləti savadsız, qanmaz, narkoman kimi görmək istəyir. Sosial şəbəkələrin təsiri altında da bəzi ailələrdə belə gənclik yetişir. Vəziyyət o həddidir ki, məsələyə ölkə rəhbərliyi münasibət bildirməli, qərarlar qəbul olunmalıdır. Yuxarıda da qeyd etdiyimiz kimi bu, Azərbaycanın gənclərlə bağlı apardığı siyasətinə qarşıdır, ziddir".

Sosial şəbəkələrdə insanlar arasında kəskin aqressiya da müşahidə edilir. Həyatda olduqca sakit görünən insanlar, sosial şəbəkələrdə aqressivləşib, təhqir dolu ifadələr işlədirlər.

Məhz bu məsələ ilə bağlı **psixoloq Azad İsazadə** ilə danışdıq. Onun sözlərinə görə, sosial şəbəkələrdə bir şəxsin arqumenti olmayan zaman söyüş söyür: "Bu, haradasa insanın aqressiyasının boşalmasıdır. Lakin psixoloji baxımdan yanaşdıqda görürük ki, əslində aqressiya tam olaraq keçmir. Çünki yazılanlara cavab verilir və getdikcə aqressiya şiddətlənir. Ona görə də gülümsəmək lazımdır. Gərginliyi zarafata çevirmək lazımdır ki, aqressiya azalsın. Lakin bir tərəf dayanmır və proses gərginləşə-gərginləşə gedir. Əslində bir tərəfin zarafata keçməsi və mübahisənin dayandığı hallara da rast gəlinir. Sadəcə olaraq biz, daha çox aqressiya ilə yazılanlara diqqət edirik. Çünki bu, hər kəsə təsir edir".

❑ **Əli RAİS,**
**"Yeni Müsavat"**

YENİ MÜSAVAT
N 78 (7248) 13 aprel 2019

**Bakıda 13 yaşlı nakam məktəbli qızın - Elina Hacıyevanın faciəli ölümü cəmiyyəti sarsıdıb. "Yeni Müsavat" xəbər verir ki, aprelin 12-də 162 saylı orta məktəbdə onun anım mərasimi keçirilib. Anım mərasimində sadə insanlar, digər məktəblərdən gəlmiş bir neçə müəllim və şagird iştirak edib. Məktəbin həyətinin giriş hissəsinə gül dəstələri, oyuncaqlar və mərhum şagirdin fotoları düzülüb.**

# Elinanın intiharının tükürpədici detalları üzə çıxır - rəfiqəsindən şok açıqlama

## Mərhum məktəbliyə 11-ci sinif şagirdinin təzyiq göstərdiyi deyilir, özünü pəncərədən atan qız haqda "İnşallah, sağ qalmaz" deyən adam araşdırılır; anım mərasimində valideynlər günahkarların həbsini tələb etdi...



"Biz valideynlər hamımız direktorun həbs olunmasını istəyirik". News24.az-ın məlumatına görə, bunu anım mərasimində məktəbdə oxuyan şagirdlərdən birinin valideyni **Səbinə Əliyeva** deyib.

Öz övladına görə narahat olan valideyn, direktor, təhsil hissə müdiri, sinif rəhbərinin və Elinanın ölümündə günahkar olan hər kəsin həbsini istəyib.

Digər valideyn **Səbahət Quliyeva** da söyləyib ki, Elinanın ölümündə günahkar məktəbin direktoru və müəllimlərdir. "Elina özünü atmamışdan öncə ən sonuncu danışdığı şəxs Cahad olub və ona Cahad özü zəng edib".

### Elinanın rəfiqəsi: "Sinif rəhbərim qadağa qoyurdu"

Bunu news24.az-a **Elinanın rəfiqəsi Zülfiyyə Şirinova** deyib. O bildirib ki, Elina ölümündən bir neçə gün əvvəl onunla söhbət edib: "Mənə dedi ki, özümü öldürmək istəyirəm. Hətta özünü atmaq istədiyini bildirdi.

Elina mənə bildirdi ki, məktəbdə onu incitdikləri üçün özünü öldürmək istəyir. Elina özünü qonşu məktəbin şagirdi Cahad Əlizadənin onunla kobud davrandığı və məktəbdə onunla ələ saldıqları səbəbindən öldürüb".

**Z.Şirinova bildirib ki, onun mərhum rəfiqəsi hamı kimi olmadığı üçün hamı onu ələ salırmış:** "Elina hamıdan fərqli idi. Çox sakit və başıaşağı. Elə ona görə də, ələ salırdılar. Elə Cahad da onu ələ salırdı, gülürdü. Əvvəlki direktorun vaxtında belə vəziyyət yox idi. Məktəbdə hər şey çox yaxşı idi. Sevinc Abbasova gələndən sonra vəziyyət tamamilə dəyişdi. Hamı deyir ki, direktorun oğlu onu ələ salırmış, amma elə şey yox idi. Onun bu işlə heç bir əlaqəsi yoxdur".

**Z.Şirinova onu da deyib ki, sinif rəhbəri ona Elinayla rəfiqəlik etməsinə qadağa qoyurdu:** "Hətta sinif rəhbərim anama belə zəng edib demişdi ki, Zülfiyyəni Elinayla rəfiqəlik etməyə icazə verməyin".

Ümumiyyətlə, Elinanı intihara sürükləyən səbəblər barədə günlərdir sosial şəbəkələr, elektron KİV-lər yazır, bir-birinin ardınca tükürpədici faktlar üzə çıxır, açıqlanır, cəmiyyət ikiyə haçalanıb: məktəb direktorunu da ittiham edənlər var, istintaqın nəticəsinə gözləmək tərəfdarı olanlar da...

Bakı Şəhəri üzrə Təhsil İdarəsi isə özünü oxuduğu məktəbin 3-cü mərtəbəsindən atan 8-ci sinif şagirdi Elina Hacıyevanın məktəbin yuxarı sinif şagirdi tərəfindən təzyiqə məruz qalması ilə bağlı sorğuya cavab verib.

Təhsil idarəsindən axar.az-a verilən məlumata görə, Bakı Şəhər Prokurorluğunda hadisə ilə bağlı müvafiq istintaq tədbirləri, Bakı Şəhəri üzrə Təhsil İdarəsi tərəfindən isə xidməti araşdırma həyata keçirilir: "Aparılan istintaq və xidməti araşdırma tədbirləri nəticəsində hadisənin başvermə səbəbləri tam aydınlaşdırılacaq. Bundan sonra bununla bağlı ictimaiyyətə əlavə məlumat veriləcək".

**Elinanın məktəbin 11-ci sinif şagirdi Hüseyn Namazov tərəfindən təzyiqə məruz qaldığı deyilir.** H.Namazov E.Hacıyevanı məlum olmayan səbəbdən məktəbin bir küncünə apararaq, vurub. 162 saylı məktəbin direktoru Sevinc Abbasova istintaqla əlaqədar olaraq müvəqqəti vəzifəsindən kənarlaşdırılıb.

### Qənirə Paşayeva: "Hamımıza deyiləcək ən təsirli sözü Elina yazıb"

**Deputat Qənirə Paşayeva** yazıb ki, neçə gündür Elinanın faciəli ölümünün sarsıntısı içindədir: "Duyğumu, düşüncəmi fikrə dönüşdürmək, onları yazmaq üçün sanki sözlər də yetərli deyil. Amma hamımıza deyiləcək ən təsirli sözü Elina özü intihardan öncə yazıb. Bu, əslində hamımıza qarşı bir uşağın, yenitemə bir qızın çağırışıdır, münasibətlər sistemindəki hansısa çatışmazlığın həyəcan siqanlıdır".

**Hüquqşünas Əliməmməd Nuriyev** bildirib ki, məktəbliyə vaxtında kömək olub-olmayıb, bu məsələlər ciddi araşdırma tələb edir: "Əvvəlcədən kimisi günahlandırmaq önyarğı ola bilər. Eyni zamanda, araşdırma tələb edən işlə bağlı bu vəzifəni yerinə yetirənlərə əlavə təzyiq vasitəsi kimi qiymətləndirilə bilər".

Ə.Nuriyev həmçinin deyib ki, direktorun Elinanın intihарından 2 saat sonra təcili tibbi yardıma çağırış etməsi iddiası da sübuta yetirilərsə, o, cinayət məsuliyyətinə cəlb edilə bilər.

### Brilliant Dadaşova: "Sən bizə bunu deyirsənsə, uşağa nələr demisən ki..."

Aprelin 11-də isə "Xəzər" TV-də yayımlanan "Səni axtarıram" verilişində Elina Hacıyevanın atası Ədalət Hacıyev qızına göstərilən münasibətlərdən danışıb.

Müzakirə zamanı ata qızının özünü pəncərədən atdıqdan sonra direktor otağına aparılmasından və orada sorğu - sual olunmasından danışarkən, bildirib ki, orada olanlardan biri Elinanın ölümünü arzulayan insanlar olduğunu deyib. "Elina direktor otağında sorğu-sual olunarkən kimsə "İnşallah, sağ qalmaz" deyir", - deyə ata bildirib.

**Verilişin aparıcısı Xoşqədəm Hidayətqızı** da bu fikirləri səsləndirən şəxsin kim olduğunun araşdırılmalı olduğunu bildirib.

**Xalq artisti Brilliant Dadaşova** deyib ki, üç gecədir yata bilmir: "Biz ağır gündə, 20 Yanvarda küçəyə çıxan xalqıq. Nə oldu ki, belə vəhşiləşdik, bir-birimizə qarşı amansızlaşdıq? Bunlar mənə təsir edir. Gələcəyimiz bu gedişlə çətin olar. Həmin direktoru işdən çıxarmaq kifayət deyil, ona cəza verilməlidir. Ölkə başçısı insanlar üçün nələr edir. 10 milyonuncu sakinə olan diqqəti gördük.



Uşaq intihar edir, həyatına son qoyur. Qalxıb deyir ki, əxlaqsız ailədəndir. Gör, sən bizə bunu deyirsənsə, uşağa nələr demisən ki, o, intihar edib. Bundan sonra özümə gəlmək üçün mənə bir ay vaxt lazımdır".

### Yusif Bəkirov: "Yalnız direktoru qınamaq da olmaz"

**Uşaq Hüquqlarının Müdafiə Liqasının sədri Yusif Bəkirov** "Yeni Müsavat"a bildirdi ki, əgər uşaqda psixoloji sıxıntılar varıydısa, ona heç kəs fikir verməyib: "Məktəb rəhbərliyində məlumat olmalıydı. Ancaq yalnız direktoru qınamaq da olmaz. Məktəb direktoru və ailə nəzarət etməyiblər. Məktəb ikinci evdir, şagirdin problemləri ilə maraqlanmalıydılar. Burada biganəlik var və hamı günahkardır".

**Y.Bəkirovun sözlərinə görə, bəzi məktəblərdə psixoloqlar yaxşı işləyirlər**: "Məktəb hər şeyə tam nəzarət edə bilməz.

Çünki 1500 şagird təhsil alır, hamısına nəzarət mümkün olmur. Ona görə həm məktəb, həm valideynlər birgə hərəkət etməlidirlər".

### Azad İsazadə: "13-14 ən çox sui-qəsd olunan yaş qrupudur"

**Psixoloq Azad İsazadə** isə "Yeni Müsavat"a bildirdi ki, ilk növbədə istintaq hər şeyi üzə çıxaracaq. Onun sözlərinə görə, uşağın direktorun otağında sorğu-sual olunması videosu araşdırılmalıdır. A.İsazadə hesab edir ki, Elinanın ölümündə məktəb və ailə mənəvi məsuliyyət daşıyır:

"Biz fikirləşməliyik ki, necə edək bundan sonra belə faciə təkrar olunmasın. Məktəbdə 500, bəzən daha çox şagird olur. Ancaq cəmi 1-2 psixoloq çalışır. 1-ci siniflə 11-ci arasında böyük fərq var, lakin eyni psixoloq cürbəcür yaş qrupları ilə işləməli olur. Ona görə də məktəblərdə say baxımdan psixoloq çatışmır, eyni zamanda savadlı psixoloqların əlində testlər var, nəsə etməyə çalışırlar, çoxunun isə psixoloji iş planı yoxdur".

**Psixoloqun fikrincə, məktəblərdə sui-qəsdlə xüsusi işləyənlər olmalıdır:** "Bu da yoxdur. Əgər yeniyetmə intihar edirsə valideyn vaxtında həyəcan siqnalı verməliydi. Bəlkə də məktəbə müraciət edib, araşdırma müəyyən edəcək. Lakin 13-14 ən çox sui-qəsd olunan yaş qrupudur. Bu yaşda insan maksimalist olur, özünü böyümüş hesab edir, həm özünə, həm ətrafına qəddar davranır. Yəni ya ağ, ya qaradır.

Bu qızı da kimlərsə qaralayıbsa, onun üçün həmin an həyat bitib, fikirləşib ki, heç kəs məni istəmir, yaşamağın mənası yoxdur. Bəzən yeniyetmələr heyvanla vəhşi davranır, onlarda empatiya, yəni ağrını hiss etmək olmur. Çünki həyatı anlamırlar".

Onu da xatırladaq ki, prezident İlham Əliyev məktəblinin intihar hadisəsini nəzarətə götürüb və Elinanın ölümündə günahkar olanların cəzalandırılacağı gözlənilir.

### Daha bir məktəbli döyülüb, yoxsa yıxılıb?

Bu arada Bakıda 12 yaşlı şagird müəllim tərəfindən döyülüb. ONA-nın məlumatına görə, hadisə paytaxtın Qaradağ rayonu Qobustan qəsəbəsində yerləşən 321 nömrəli məktəbdə qeydə alınıb. Məktəbin müəllimi şagirdi döyüb. Döyülən şagird xəstəxanaya yerləşdirilib.

Səhiyyə Nazirliyindən bildirilib ki, xəsarət alan uşaq təcili tibbi yardım maşını ilə Klinik Tibbi Mərkəzə gətirilib. Ona kəllə beyin travması diaqnozu qoyulub.

Məktəbdən "Report"a bildirilib ki, aprelin 12-si saat təxminən 11:30 radələrində məktəbin VII sinif şagirdi (müvafiq səbəblərə görə şagirdin adı qeyd olunmur) riyaziyyat dərsində özünü pis hiss edib və yıxılıb.

"Şagirdin halı pisləşdiyi üçün başı dəyib. Sinif rəhbəri şagirdin doğma xalasıdır. Hadisə olan kimi dərhal valideynə də məlumat verilib. Məktəbə təcili-tibbi yardım çağırılıb. Şagirdin atası da uşaqla xəstəxanaya gedib. Məktəb rəhbərliyi tərəfindən valideyn ilə əlaqə saxlanılıb, şagirdin halının yaxşı olduğu bildirilib.

**❑ Emil SALAMOĞLU**
**"Yeni Müsavat"**

YENİ MÜSAVAT
N 78 (7248) 13 aprel 2019

# Təhlükəsizlik üzrə ekspert yanğınlarda təxribat izindən danışdı

**Azərbaycanda 2019-cu ilin əvvəlindən başlayaraq müəmmalı yanğınlar müşahidə edilməkdədir. Yanğınları müəmmalı edən isə gözlənilməz yerlərdən başlamaları, bir yanğınsöndürmə balonu vasitəsi ilə qarşısı alına biləcək alovun bir göz qırpımında böyük bir ərazini ağuşuna almasıdır.**

**Baş nazirin müavini, YAP-ın icra katibi-sədr müavini Əli Əhmədov** da jurnalistlərə açıqlamasında bildirib ki, yanğının qəsdən törədilib. Yanğınların qəsdən törədilməsi ehtimalları dövlət məmuru Rövşən Rzayevin açıqlamasına qədər də dolaşırdı. Ümumilikdə isə ilin əvvəlində baş verən yanğınların törədildiyi ünvanlara nəzər salınanda çox ciddi mətləblər üzə çıxır.

Sonuncu belə yanğın aprelin 10-da Nizami rayonu, Babək prospektində "Azərsutikinti" Xəstəxanasının korpusunda məcburi köçkünlərin yaşadığı binada baş verib. Yataqxana binasında baş verən yanğın zamanı 7 nəfərə tibbi yardım göstərilib. Onlardan 3-ü qadın, 3-ü kişi, 1-i uşaqdır. Yanğın zamanı 45 yaşlı kişi özünü binanın 5-ci mərtəbəsindən ataraq dəhşətli ölümdən can qurtarmağa çalışıb.

Hadisə yerinə gələn Qaçqınların və Məcburi Köçkünlərin İşləri üzrə Dövlət Komitəsinin sədri Rövşən Rzayev deyib ki, yanğının qəsdən törədilməsini istisna etmirlər. Rövşən Rzayev bundan əvvəl Nərimanov rayonunda məcburi köçkünlərin məskunlaşdığı yataqxanadakı yanğınla bağlı son dərəcə ilginc açıqlama verib.

"Nərimanov rayonunda məcburi köçkünlərin məskunlaşdığı yataqxanadakı yanğın qəsdən törədilib" -deyə, jurnalistlərə açıqlamasında bildirib. Onun sözlərinə görə, hadisə ilə bağlı cinayət işi başlanıb, müvafiq ekspertizalar təyin edilib. Komitə sədri yanğının qəsdən törədilməsi ilə bağlı ekspertizanın rəy verdiyini də diqqətə çatdırıb. Yanğının kimin tərəfindən, hansı məqsədlə törədildiyini isə komitə sədri açıqlamayıb.

Rövşən Rzayevin yandırıldığını bildirdiyi yataqxana Nərimanov rayonu, Malik Məmmədov 12 ünvanında yerləşir. Həmin yataqxanada yanğın martın 6-da gecə yarısı meydana gəlib. Yanğın məcburi köçkünlərin məskunlaşdığı yataqxananın 3-cü mərtəbəsində olub. Hadisə nəticəsində Elza və Surxay Əliyevlər həyatlarını itirib. 6 nəfər isə tüstüdən zəhərlənib.



## İlham İsmayıl: "Bütün versiyalar araşdırılmalıdır"

Bu il martın 2-də Bakıda "Vətən" Respublika İxtisaslaşdırılmış Olimpiya Ehtiyatları Uşaq Gənclər Futbol Məktəbində yanğın baş verdi. Sonradan Fövqəladə Hallar Nazirliyinin yaydığı məlumatdan belə aydın olurdu ki, Binəqədi rayonunda futbol məktəbində yanğın idman zalının dam örtüyündə meydana gəlib. Xoşbəxtlikdən hadisə zamanı xəsarət alan olmamışdı. Binanın damında yanğının səbəbi bilinmədi.

Martın 5-də Bakının mərkəzi rayonlarından olan Nərimanovda məcburi köçkünlərin məskunlaşdığı yataqxananın 3-cü mərtəbəsində yanğın başlayıb. Hadisə nəticəsində 2 nəfər ölüb, 6 nəfər isə xəsarət alıb. 21 gün sonra, martın 26-da "Diqlas" Ticarət Mərkəzinin çölündəki dönər köşkündə səhər tezdən meydana gələn balaca bir yanğın böyük bir alova çevrildi. Hadisə yerinə Bakının əksər rayonlarının yanğınsöndürmə briqadaları gəldi, yanğınsöndürən qaldırılsa da, xeyri olmadı. "Diqlas" ticarət mərkəzi kibrit çöpü kimi külə döndü. Martın 27-də Xəzər rayonunda da beşmərtəbəli yaşayış binasında yanğın olub. Bu dəfə də yanğın binanın 5-ci mərtəbəsində, damda meydana gəlib. Binanın çardağında istifadəsiz ev əşyaları və taxta tullantıları 10 m2 sahədə yanıb. Yanğın zamanı 15 nəfər bina sakini yanğınsöndürənlər tərəfindən təhlükəsiz əraziyə təxliyə olunub. Bina və mənzillər yanğından mühafizə olunub. Damda yanğının səbəbi haqda məlumat yoxdur. "Azərsutikinti" Xəstəxanasının korpusunda məcburi köçkünlərin yaşadığı binada da istisna deyil - yanğın məhz damdan başlayıb!

Azərbaycanda məktəblərin, yaşayış binalarının, köçkün yataqxanalarının damlarında yanğınlar törədilməsi eyni qrup şəxslərin dəst-xətti olması ehtimalını doğurur.. Belə ehtimallar yaranır ki, damlarda yanğın törədən xüsusi adamlar var. Baş verənlər təsadüfdür, yoxsa təxribat zəncirinin halqaları kimi diqqətdən keçirilməlidir?

**Təhlükəsizlik məsələləri üzrə ekspert, sabiq təhlükəsizlik zabiti İlham İsmayıl** deyir ki, baş verən yanğınlarda kənar təxribat axtarmaq lazım deyil: "Çünki kiçik yanğınlar hansısa xarici ölkənin marağında deyil. Bu daxildə olan məsələlərdir. Bunu daxili təxribat hesab etsək, bunun məqsədi daha çox sosial xarakter daşıyır. Mümkündür ki, bu məsələlər ehtiyatsızlıqdan baş verib. Qaçqınların, köçkünlərin məskunlaşdığı binalar yandırılırsa, səbəb yaşayışdır. Qaçqın demək istəyir ki, yaşayış yerimi yaxşılaşdır, yeni evlə təmin elə. Təbii ki, belə bir ehtimalın olmasına görə həmin yerdə yanğın təhlükəsizliyi məsələsinə xüsusi diqqət yetirilməlidir.

Qaçqınlar narazı qüvvədir, çox şey itirmiş insanlardır. Adamların etiraz potensialları çoxdur. Bunu da yönəldə biləcək adamlar ola bilər. İnanmıram ki, belə addımlarla kiməsə təsir eləsinlər. Hakimiyyətdaxii mübarizə və ya kənar müxalifət mübarizəsi də istisna olunur. Qaçqınlarla bağlı yanğınlar sosial vəziyyətin yaxşılaşdırılması üçündür, qalanları isə ehtiyatsızlıqdan, yanğından mühafizəyə xüsusi diqqətin ayrılmamasının nəticəsi də ola bilər. Kənar təxribatın olmasını söyləmək üçün əsaslar görmürəm".

Bununla belə, İlham İsmayıl yanğınların binaların damlardan başlamasını qəsdən yandırılma ola biləcəyini də istisna etmir: "Mümkündür ki, kimsə xüsusi olaraq dama çıxır və yandırır. İstər yanğın, istər ölüm hadisəsi olsun, bunun motivi olmalıdır. Cinayət tərkibi düzəlməsi üçün motiv bilinməlidir. Yanğın məsələsində də müəyyən olunmalıdır ki, bina yanıb, yoxsa yandırıblar. Yandırma versiyası üzərində də hüquq-mühafizə orqanları işləyirlər. Səbəbi, motivi aydınlaşdırırlar. Qisasdır, təxribatdır, sosial vəziyyəti yaxşılaşdırmaqdır? Məktəbin damında yanğını məktəbli də törədə bilər. Səbəb də bu ola bilər ki, məktəbli dərsə gəlməmək üçün bunu edə bilər. Belə xırda detallar da ola bilər. Ona görə də tələsik qərar verilməməli, bütün versiyalar araşdırılmalıdır. Təxribat xarakterli olması, əhalidə kütləvi narazılıq yaradıb-yaratmamaq məsələsini aşkar edib ortaya çıxarmaq hüquq-mühafizə və xüsusi xidmət orqanlarının işidir".

**İlham İsmayıl deyir ki, hər bir yanğına təxribat nöqteyi nəzərindən diqqətdən keçirmək doğru deyil. Hesab edir ki, daha çox yanğından mühafizə məsələlərinə xüsusi diqqət yetirilməlidir.**

❑ E.MƏMMƏDƏLİYEV,
"Yeni Müsavat"

# Assanja azadlıq!



Samir SARI

**Açığı, qırmızısı, jurnalist Culian Assanjın Londonda həbs edilməsi, bakılılar demişkən, ləzzət eləmədi.**

Həmkarlıq faktoru rol oynadı, nədi, hətta bu xəbər bizi çox məyus etdi, türkün sözü, üzdü.

Hiss olunur ki, adamı açıq-aşkar şərləyirlər. Ay seksual təcavüz, zorlamaya cəhd-filan... Çürük, məntiqsiz ittihamlara oxşayır.

Ona görə ki, cinsi münasibətlərin azad, seksual partnyor tapmağın problemsiz olduğu Avropa ölkələrində "Oskar" almış Hollivud aktyorlarından da yaraşıqlı olan bir adamın hansısa qadına sataşması absurddan da absurddur. Necə deyərlər, Culian əlini yelləsə əllisi gələr. Üstəlik, cibində pulu da var və Avropa şəhərlərində də qırmızı fənərli küçələr də çoxdur.

Bu baxımdan Assanja qarşı irəli sürülən ittihama inanmaq çətin idi. Elə Ekvador dövləti də, görünür, 7 il öncə jurnalistə Londondakı səfirliyində sığınacaq verəndə həmin ittihamlara inanmayıb. Yoxsa bir seksual manyaka kim öz evində sığınacaq verər?

Həmkarımızın həbsini Amerika Birləşmiş Ştatları sifariş etmişdi. Bu elə bir dövlətdir ki, dünyada hamını hər şeydə ittiham edə bilər, bütün dövlətlərdən kəşfiyyat məlumatları ala, sonradan hətta altına imza qoydurub mediada yaya bilər, amma, rus demişkən, ne day Boq, kimsə onun sirrini bilsin, yaysın. Dərhal həmin dövlətin və ya qurumun başına cürbəcür pəstəha, müsibət, oyun və sair bu kimi şeylər gələr.

Başqa dövlətlərdə nəsə bir xətalı yazı yazmış jurnalistin qolunu burub maşına basanda və bir gecə bölmədə saxlayanda ertəsi səhər ABŞ prezidentinin mətbuat katibi Ağ Evdə brifinq keçirərək həmin jurnalistin adını çəkir, ona azadlıq tələb edir, ancaq indi özləri bir jurnalisti yazdığı yazılara, açıqladığı materiallara görə təqib edirlər. Sanki Culian Assanj ABŞ vətəndaşıdır və bu ölkənin ərazisində onun qanunlarını pozub. Elə deyil. Assanj başqa ölkənin vətəndaşdır və ABŞ qarşısında hüquqi öhdəliyi yoxdur. Bu məntiqlə bu dövlət dünyanın istənilən ölkəsində ABŞ-a qarşı yazan, danışan adamın həbsini tələb edə bilər.

Başa düşdük, dünya hegemonudur, amma bu, demək deyil ki, hamını təqib etmək hüququ var.

Adam oturub fikirləşir və görür ki, bir ara Türkiyədə və ölkəmizdə məşhur olan "CİA (MKİ) bizi izleyir" zarafatı heç də tamamən zarafat deyilmiş. Deyəsən, hamımızı doğrudan da izləyirlər.

Budur, Culian Assanjı yeddi il gizləndiyi səfirlikdən çıxarıb tutublar. O da bin Laden deyil ki... Assanj heç də əkiz göydələnləri və Pentaqonun bir böyrünü təyyarə ilə taran edib partlatmayıb, sadəcə, əlinə keçən məxfi materialları paylaşıb ki, dünya onları kimin nə cür, hansı fırıldaqlarla idarə etdiyini bilsin. Adam əslində çox savab iş görüb, bəşəriyyətə xidmət edib. Hətta danışdırsaq, and içə bilər ki, bu xidmətə görə bir sentin yiyəsi olmayıb. Bəs sən bunu niyə tutdurursan? Harda qaldı söz və mətbuat azadlığı? Ta sənin gündə bir jurnalist tutan Çindən nə fərqin oldu?

İngiltərənin hüquq-mühafizə orqanlarının fəaliyyətinə gəlincə, onlar da zay imiş. Dünyanın bütün korrupsionerləri, oğruları, diktatorları xalqdan çırpışdırdıqları milyardları da götürüb axışsınlar dumanlı Albionun dilbər guşələrinə, yeyib-içib şellənsinlər, mal-mülk alsınlar, biznes qursunlar, birinə bir söz demə (hərdən çağırıb 5-6 milyonlarını almaqdan savay), amma bir yetim jurnalisti tut ki, bu qanun pozub. Elə şey yoxdur. İnsan haqlarına dair deklarasiyalar, beynəlxalq konvensiyalar var...

Ekvadorun təzə prezidentinin etdiyi isə satqınlıqdır. Köhnə prezident Rafael Korrea kişi adam imiş, illərlə həmkarımızı qorudu, saxladı, amma yeni prezident Lenin Moreno ABŞ-ın təzyiqinin qarşısında cəmi iki il dura bildi və axırda dövlətinin qapısına pənah gətirmiş Assanjı satdı. Ya qorxusundan, ya da kredit transına-filana.

İndi kim bilir, həmkarımızın taleyi necə olacaq. O gün dostlardan biri yaxşı yazmışdı ki, gərək o, yeddi il əvvəl gizlənməyəydi, tutulaydı, uzağı 10 il verəcəkdilər və o, indiyə cəzasının 2\3-ni çəkdiyinə görə azad olunmuş olardı. Onsuz da 7 il bir binada (səfirlik də olsa) yaşamaq elə türmə kimi bir şeydir.

**Əslində Amerika polisləri Assanjın balaca bacısını 7 il əvvəl tutub bölməyə aparsaydılar, o, bu qədər gizlənməzdi, gedib təslim olardı.**



# Sümüklü çörək

Zamin HACI
zaminhaci@gmail.com

"... pəncərə qıraqlarındakı yarımçıq perajkilər Təhsil Nazirliyinə tabe deyillər"

*(Nərmin Kamal)*

**Gör ölkədə nə qədər sümük varmış... Həm özümüz bir-birimizin sümüyünü gəmiririk, həm qonum-qonşudakı itlərin qabağına atırıq, həm də una qatırıq. Hərçənd, mən una sümük qatılmasına inanmıram. Guya istehlakçıların hüquqlarını qoruyan lotunun bu istiqamətdə təsdiqləyici şərhlərinə də şübhə edirəm. Sümük bəyəm buğdadan ucuz başa gəlir ki, onu üyüdüb una qatasan? Hələ sümüyün üyüdülməsi xərclərini demirəm. Ancaq millətə uydurma lazımdır. Yalan daha maraqlı, daha şirin olur. Bu dəqiqə istəsən qoltuğunun altından xəbər çıxarıb hansısa dərədə pendirə soxulcan qatıldığını, çayın içinə anaşa doğrandığını, nə bilim, toyuq ətinə delfin budu qatıldığını yay, hər kəs inanıb təəssüflənəcəkdir. Daha kimsənin vecinə olmayacaq ki, axı soxulcanın kilosu pendirdən baha başa gəlməlidir, heç qalanlarını demirəm.**

Saxta ilə gerçəyin, yalan ilə doğrunun, əsl ilə surətin fərqi bilinməyən məmləkətlərdə prinsipcə, nə yeyib-içməyin də böyük fərqi olmamalıdır. O üzdən, anlamıram, camaat niyə una sümük qatılmasından narahat olur. Bəy verən atın dişinə baxmazlar. Ya da o məşhur, saqqallı lətifədə deyilən kimi: "Xoşun gəlmir, yemə". Bir dənə ata sözünü də yazaq, lap mentalitetə uyğun olsun: "Yedin dadındır, verdin adındır, qaldı yadındır". Yeyin getsin. Rəhmətlik xalq şairimiz Bayram müəllim demiş, yeyib-içən oğlan yaman olmaz.

Yazının bu yerində ölkəmizdəki mobil operatorlardan birindən qorxunc zəng gəldi. Sən demə, mənim bunlara nəyəsə görə 10 manat borcum varmış, ödəməsəm, verəcəklər məhkəməyə. 10 manatlıq məhkəmə prosesi mənə maraqlı gəlsə də, hər halda müştəri xidmətinə zəng vurdum, çünki belə bir borcum olması qətiyyən ağlıma gəlmirdi. Araşdırdılar, sən demə, mən 2014-cü ildə bunların axmaq bir data-kart interneti xidmətindən "yararlanmışam", borc o vaxtdan qalıbdır. Lənət şeytana. Yadıma salıram ki, o vaxt həmin internet rayon yerində heç bir zada yaramadığı üçün heç istifadə edə bilmədim, Bakıya dönən kimi də bağlatdırdım, çıxdı getdi. Təbii ki, bu qədər uzun müddətə ödəmə qəbzlərini də saxlamamışam, heç saxlasam belə, onun üzərində yazının mürəkkəbinin solmadan qalması ehtimalı sıfıra yaxındır. Bəs 5 il sonra niyə şirkət bu cür borc çıxarıb? Ey dadi-bidad. Axı bu Mirzə Cəlilin "Quzu" hekayəsidir! Belə başa düşdüm ki, həyatımın yerdə qalan hissəsində hər 5 ildən bir o mobil operatora 10 manat cərimə ödəməliyəm. Dəlixanadırmı? Xeyr. Analoqu olmayan Azərbaycan standartlarıdır. Undan sümük çıxması kimi bir şeydir. Hərçənd, mən hələ yaxşı canımı qurtardığımı zənn edirəm, bir qohuma vaxtilə Bakı şəhər telefon idarəsindən yüksək məbləğdə xarici telefon danışığı hesabı gəlmişdi. Getmişdi araşdırmağa, demişdilər ki, guya qohum... Solomon adaları ilə neçə dəqiqə isə danışıbdır. İşin ən tragikomik tərəfi isə qohumun soyadının Süleymanov olmasıydı. Bəlkə də araşdırsan bunu hansısa hədisdə tapmaq olar.

Dünən bir xəbər oxudum, deyir, deputatlardan birinin qızının toyu olduğu üçün Milli Məclisin iclasının vaxtı dəyişdirilibdir. Əhsən. Allah xoşbəxt eləsin. Bizə qalan elə bu cür gözəl tədbirlər olacaqdır. Parlament iclası-zad boş şeydir, lap yeri gəlsə, onu elə toyxanada keçirmək mümkündür. Tamada qanunu səsə qoyur, qudalar çıxıb oynaya-oynaya səs verirlər. Sözgəlişi, bizdə hələ də "Aşın toyxanaya gətirilməsi qaydaları və manqalüstü salatın süfrəyə verilməsi prosedurları haqda Azərbaycan Respublikasının qanunu" qəbul edilməmişdir. Nə üçün? Bəlkə kimsə aşa kapron düyü qatdı? Bəlkə oğlan evinin adamları qız evinin adamlarına məxsus bildirçin tikələrini qanunsuz yeyəcəkdir? Hamısı vaxtında tənzimlənməlidir.

**Bu arada, hörmətli Təhsil Nazirliyi məktəblərin pəncərələrinin bağlanması xəbərini təkzib elədi. Niyə? Yaxşı olardı. Hətta qapısı, darvazası da bağlansın, uşaqlar repetitor yanına rahat getsinlər. Məktəbdə asayişin təmin edilməsi üzrə təkliflərim çoxdur, qalsın başqa vaxta. Çünki mənə ayrılan yer bitdi, əlavə yer də alsam gərək yazıya su qatım. Bu isə halal köşə olmaz, bir Hacıya yaraşmaz.**

# Paris-Ankara münasibətləri gərginləşir- Çavuşoğlundan Fransaya sərt sözlər

## Aprelin 24-nün qondarma "erməni soyqırımı" qurbanlarının milli anım günü kimi qeyd olunması qərarına Azərbaycandan kəskin etirazlar



Mövlud Çavuşoğlu



Emmanuel Makron

**Gözlənildiyi kimi, Fransa prezidenti Emmanuel Makron ölkə ərazisində 24 aprel tarixinin qondarma "erməni soyqırımı"nı anım günü elan olunması barədə fərman imzaladı. Fərman artıq Fransanın rəsmi qanunvericilik portalında dərc olunub.**

**"Hər il Fransada 24 aprel tarixi "erməni soyqırımı" qurbanlarının milli anım günü kimi qeyd olunacaq", - deyə fərmanda bildirilir.**

Beləliklə, bundan sonra saxta "erməni soyqırımı" ilə bağlı tədbirlər Parisdə rəsmi qaydada keçiriləcək.

Xatırladaq ki, 2001-ci ildə Fransa qondarma "erməni soyqırımı"nı rəsmi olaraq tanıyıb. O zaman Parisin qərarı Türkiyə tərəfindən çox sərt qarşılandı, əlaqələr xeyli zəiflədi, Fransa mallarını boykotdan tutmuş, diplomatik münasibətlərin səngiməsinə qədər bir sıra olaylar müşahidə olundu. Lakin sonrakı dönəmlərdə münasibətlər öz axarına düşməyə başladı. E.Makron isə öz gəlişi ilə yenidən ermənilər qucaq açdı. Keçən il o, İrəvandakı tədbirə qatılarkən də Ermənistana və ermənilərə sevgisini izhar etmişdi. Düzdür, bundan əvvəlki rəhbərlik də Ermənistanı Fransanın "bacısı" olaraq qiymətləndirmişdi, lakin hər halda, Makronsayağı davranmamışdı.

Beləliklə, özünü demokratik, beynəlxalq hüququn aliliyini qoruyan dövlətlərdən sayan, Avropa Birliyinin aparıcı üzvlərindən olan Fransa növbəti ədalətsizliyə imzasını atdı. Hansı ki, yaxın keçmişimizdə, 27 il bundan qabaq Ermənistan ordusu öz havadarları ilə birlikdə Xocalı soyqırımını törədiblər, Fransa isə hələ ki bu dəhşətli soyqırım barədə qərarını verməyib. Lakin bunun əvəzində Paris 1915-ci ildə baş verməyən hadisələrə görə davamlı addımlar atır. Təbii ki, qardaş ölkənin buna cavabı sərt olacaq.

Türkiyənin Xarici İşlər Nazirliyi Fransa prezidenti Emmanuel Makronun 24 apreli "qondarma erməni soyqırımının" qurbanlarının xatirə günü elan etməsi qərarını tənqid edib. Bu barədə Türkiyə XİN-in bəyanatında deyilir. "Fransanın Türkiyəyə dair dostluq prinsiplərindən uzaq mövqeyi Türkiyə-Fransa əlaqələrinə mənfi təsir göstərəcək", - deyə Türkiyə Xarici İşlər Nazirliyinin bəyanatında qeyd edilir. Bəyanatda həmçinin bildirilir ki, Emmanuel Makronun qərarı Fransada yaşayan 700 mindən çox etnik türkün hüquqlarını pozur.

Xarici işlər naziri Mövlud Çavuşoğlu da Makronun qərarına reaksiya verib. Nazir şəxsi tvitter səhifəsində yazıb ki, Fransa prezidenti Makronun "24 aprel" sərəncamı Avropa İnsan Haqları Məhkəməsi və Fransanın Konstitusiya Məhkəməsinin qərarlarını açıq şəkildə pozur. Makron seçki kampaniyasında ermənilərə verdiyi vədləri yerinə yetirməyə cəhd göstərərək yenə populizmi körükləyir. Əvvəl öz qaranlıq tarixinə nəzər salsın. Ruanda soyqırımının üzərindən 25 il keçib. Xarici işlər Naziri Çavuşoğlu Türkiyə-Hollandiya (Wittenburg) 7-ci Konfransından sonra Amsterdamda hollandiyalı həmkarı Stef Blok ilə keçirilən birgə mətbuat konfransında isə deyib ki, bu qərarın bizim üçün heç bir etibarlılığı yoxdur. Bu məsələdə biz də lazımi tədbirləri onsuz da alacağıq. Bununla bağlı Ankarada bəzi cəhdləri başladıq. Bu cür siyasi qərarlar almağın tarixi təhrif etməyin siyasətçilərə yaraşmadığını vurğulayan Çavuşoğlu "Siyasətçilərin bu məsələlərdə qərar qəbul etməsi düzgün deyil. Xüsusilə Fransanın bu məsələdə qərar alması hər baxımdan tragikomikdir. Fransanın öz tarixinə baxması lazımdır" deyə bildirib.

M.Çavuşoğlu NATO tribunasından da Makronun siyasətini darmadağın edib. "Fransa kimi ölkələr bir şeyə öyrənib. Həmişə müdirlik edəcəklər, həmişə başqa ölkələri tənqid edəcəklər, alçaldaçaqlar. Türkiyə və ya başqa ölkə tərəfindən tənqid olunanda isə şok olacaqlar"-Çavuşoğlu bəyan edib. (Axar.az) NATO Parlament Assambleyasının seminarında çıxışı zamanı XİN rəhbəri daha sonra bildirib: "Beynəlxalq hüquqla bağlı Türkiyəyə dərs verməyə çalışırsınız. Burada mənim dediklərimə belə dözə bilmirsiniz. Makronun aldığı qərar Fransa Konstitusiya Məhkəməsinin qərarı ilə təzad təşkil etmir? Avropa İnsan Haqları Məhkəməsinin qərarlarıyla təzad təşkil edir? Hər ikisi ilə də təzadlıdır. Keçmişdə baş vermiş bir hadisəni soyqırım kimi tanımaq siyasətçilərin vəzifəsidir? BMT qərarlarını oxudunuz? Siz siyasilər tarixlə bağlı hadisələr haqqında qərar verməyi özünüz üçün haqq olaraq görürsünüz. Hansı məlumatla bu barədə qəti qərar verirsiniz? Bunun səbəbi populizmdir, sizin prezidentiniz də populizmə məğlub olmuşdur. Soyqırım barədə Türkiyəyə dərs verəcək son ölkə Fransadır. Fransa əvvəlcə öz tarixinə baxsın, dərs verməyə çalışmasın. Əlcəzairdə, Fransada baş verənləri unutmadıq. Siz özünüzü üstün görməyə davam edin, ancaq sizə həddinizi bildirməyə davam edəcəyik". Qeyd edək ki, Çavuşoğlu bu fikirləri fransalı parlamentari Sonia Kriminin "qondarma erməni soyqırımı" barədə sualını cavablandırarkən söyləyib.

Bəs, Azərbaycan indiki situasiyada hansı addımları atmaq niyyətindədir? Hələlik rəsmi Bakı məsələyə münasibət bildirməyib. Bəzi müşahidəçilər hesab edir ki, ATƏT-in Minsk Qrupunun üzvlərindən biri olan Fransanın açıq-aydın ermənipərəst mövqe tutması Parisin Qarabağ məsələsində də ədalətsiz davranacağına şübhə yeri qoymur, ötən illərdə bunun dəfələrlə şahidi olmuşuq. Belə olan təqdirdə Fransanın həmsədrliyindən imtina məsələsinin də gündəmə gələ biləcəyi ehtimal olunur.

**Deputat Fazil Mustafa** "Yeni Müsavat"a bildirdi ki, Türkiyə ilə Fransa arasında münasibətlər neçə illərdir ürəkaçan deyil: "Fransanı idarə edənlər öz böyük mədəniyyətlərindən imtina edərək erməni vəhşiliyinin təbliğatçısına çevrildiklərinə görə, bir azdan bu ölkənin "İkinci Ermənistan" adlanmasına qətiyyən təəccüblənməyəcəksiniz. Açıq-aşkar türk düşmənçiliyi kursunu götürüblər və ermənilərin himayəçiliyini də bütün mövqelərdə açıqca ortaya qoyurlar. Təbii ki, Türkiyə də bir dövlət olaraq buna qarşı öz dirənişini, sərt etirazını ortaya qoyur və qoymalıdır. Lakin Türkiyəyə qarşı bu istiqamətdə bir xaçlı yürüşü olduğunu nəzərə alaraq, Malazgird zəfərində olduğu kimi Alparslan taktikasından istifadə etmək lazımdır. Bu günün diplomatiya dili ilə Türkiyənin hər platformada bu ölkələrə cavab verməsi vacibdir".

**F.Mustafa hesab edir ki, Azərbaycan Türkiyənin bu mövzuda hər bir addımını dəstəkləməlidir:** "Çünki saxta soyqırım ittihamının bir ucu da bizə gəlib çatır. Həmsədr ölkə kimi Fransanın biabırçı mövqeyi onsuz da tərəfimizdən tənqid olunur, ancaq bu soyqırım günü məsələsi ilə özlərini daha da ifşa etdilər".

**İmtina məsələsinə gəldikdə, deputat bildirdi ki, bu, real deyil:** "Çünki beynəlxalq güclər həmsədrlərin üçünü də məhz Ermənistanı müdafiə etmək üçün oraya yerləşdiriblər".

**Deputat, Azərbaycan parlamentinin AŞ PA-dakı nümayəndə heyətinin üzvü Qənirə Paşayeva** isə bildirib ki, bu çox ciddi məsələdir: "Fransa bir daha Dağlıq Qarabağ münaqişəsinin tənzimlənməsi ilə bağlı ATƏT-in Minsk Qrupunun həmsədri kimi neytrallığına kölgə saldı. Qondarma soyqırım haqda qərar qəbul edib, heç zaman Xocalı ilə bağlı danışmayan Fransa prezidenti Dağlıq Qarabağ münaqişəsi ilə bağlı ədalətli davranması bir tərəfə, heç neytral da ola bilməz". Q.Paşayeva sosial şəbəkələrdə təcrübəli olan insanlara çağırış edərək etirazımızı sosial media üzərindən Fransa rəhbərliyinə çatdırmağa çağırıb: "Bu, çox ciddi məsələdir. Qardaş Türkiyə və Türk dünyası gəncliyini, Fransada yaşayan Türk kökənli insanları da etiraz səslərini sosial şəbəkələrdən Fransa rəhbərliyi və ictimaiyyətinə çatdırmaqda fəal olmağa çağırırıq. Hər kəs bu qərarı millət olaraq nə qədər qınadığımızı, etiraz etdiyimizi və gerçəkləri daim yaymaqda israrlı olduğumuzu və olacağımızı görməlidir".

**Q.Paşayeva etiraz məktubunu fransız dilində də yayıb.**

❑ **E.PAŞASOY,**

# AŞ PA-dakı dinləmələrin pərdəarxası...

**Aprelin 9-da Strasburqda Avropa Şurasının Parlament Assambleyasının yaz sessiyasında Azərbaycanla bağlı sərt dinləmələrin keçirilməsi ölkəmizdə etiraz doğurub. Dinləmələrdə siyasi məhbuslar məsələsi ilə bağlı müzakirələrə sərt təpkilər var.**

Bu da səbəbsiz deyil. Belə ki, üç həftə öncə beynəlxalq qurumların müsbət qarşıladığı əfv sərəncamı verilib və 50-dən çox siyasi məhbus kimi tanınan şəxs azad olunub. Bunun ardından AŞPA-da bəlli qrupların belə dinləmələri məqsədli şəkildə təşkil etdiyi şübhə doğurmur. Bunun daha çox gələn ay Azərbaycanla Avropa İttifaqı arasında imzalanacaq sazişin qarşısını almağa yönəldiyi bildirilir.





**Fazil Mustafa:** "Düşünülmüş şəkildə və qərəzli ittihamların olması çox üzücüdür"
**Qulamuseyn Əlibəyli:** "Assambleyadakı bu cür müzakirələr ictimai xarakter daşıyır"

**Böyük Quruluş Partiyasının sədri, deputat Fazil Mustafa** bu dinləmələrin sazişə təsir etməyəcəyini düşünür: "Azərbaycan hakimiyyətini əvvəlki illərdə ittiham etməyi haradasa anlamaq olardı. Çünki onların siyasi kimliklə tanıdıqları şəxslərin həbsdə saxlanılması hələ də davam edirdi. Amma indi faktiki olaraq Novruz bayramında əksəriyyəti azad olundu. Qalan bir neçə nəfərin də azad edilmə ehtimalları var. Belə bir ərəfədə sanki ortamı gərginləşdirirlər ki, həbsdə qalanlar azad olunmasın, Azərbaycan da ittihamlara məruz qalsın. Bunlar məhz ona yönəlik addımlardır. Xeyli sayda şəxsin azad olunması təqdirlə qarşılanmalı idi. Amma görünən odur ki, əks hallar baş verir. Düşünülmüş şəkildə və qərəzli ittihamların olması çox üzücüdür. Avropa İttifaqı ilə Azərbaycan arasında onsuzda saziş bağlanacaq. Çünki bu həm Avropa, həm də Azərbaycan maraqlarına uyğundur. Maneələr olmasa, problemlər yaşanmasa, yəqin ki, müqavilə bağlanacaq. Bu sazişin imzalanması çox vacibdir. Çünki Azərbaycan Avropa ilə əlaqələrini nə qədər genişləndirsə, maraqlarımız baxımından daha əlverişli olar. Əlaqələrin möhkəmlənməsi baxımından da çox önəmlidir. Bütün məsələləri Azərbaycan-Avropa dialoqunda götürmək olmaz. Azərbaycan-Ermənistan məsələsi kimi baxmaq lazımdır. Azərbaycan Dağlıq Qarabağ məsələsini qaldırır, heç bir arqumentləri yoxdur. Ermənistanın müdafiə naziri yeni işğaldan danışıb, buna da arqumentləri yoxdur. Problemlər hər zaman var və dəfələrlə gündəmə gətirilib. Amma problemin bu ərəfədə göstərilməsinin əsas məqsədlərindən biri odur ki, Azərbaycanın Dağlıq Qarabağ məsələsində mövqeyi və tələbi zəifləsin".

**Aydınlar Partiyasının sədri Qulamuseyn Əlibəyli** belə dinləmələrə normal yanaşır: "Avropa strukturlarında həmin təşkilatın üzvü olan yaxud üzvü olmaq istəyən dövlətlərlə, qurumlarla bağlı bu cür qərarlar qəbul edilir, dinləmələr keçirilir. Mən buna normal yanaşıram. Sadəcə, Avropa cəmiyyətinin diqqətini mövcud problemlərə yönəltmək məqsədilə belə dinləmələr təşkil olunur. Azərbaycanda siyasi məhbuslarla bağlı məsələ Avropa Şurasında 2001-ci ildən etibarən, yəni quruma üzv olduqdan sonra müzakirə edilməyə başlayıb. Yadımdadır ki, Azərbaycan Avropa Şurasına üzv olanda Hüquq Müdafiə Təşkilatı haradasa 800-dən artıq insanın adını siyasi məhbus kimi vermişdilər. Sonrakı dövrlərdə bu cür dinləmələrin, müzakirələrin nəticəsində o məhbusların demək olar hamısı azad olundu. Düzdür, burada sui-istifadə halları da oldu. Siyasi məhbus olmayan şəxslərin adları da siyahıya salınmışdı. İndiki şəraitdə də belə hallara rast gəlmək olar. AŞ PA-dakı bu cür müzakirələr ictimai xarakter daşıyır. Məcburi xarakterli deyil, tövsiyə xarakterli qərarlar qəbul olunur. Novruz əfvi müsbət idi. Siyasi məhbusların böyük bir hissəsini əhatə etdi. Amma hər halda siyasi məhbus hesab edilənlərin bir qismi hələ də həbsdədir. Yaxın vaxtlarda onların azadlığa çıxmaları məsələsi müzakirə oluna bilər. Bu cür müzakirələrin sərt olub-olmamasının Avropa İttifaqı ilə bağlanacaq sazişə heç bir təsiri olmayacaq. O sazişin məzmunun nədən ibarət olduğunu dəqiqləşdirmək lazımdır. Çünki bu barədə dəqiq məlumat yoxdur".

❑ **Cavanşir ABBASLI,**
**"Yeni Müsavat"**

# Culian Assanjın əlində hansı sirlər var?

## Politoloq: "Wikileaks"in rəhbərinin həbsi yeni qalmaqallar yaradacaq"

**"Wikileaks" saytının qurucusu, ABŞ diplomatlarının sirləri, Amerikanın yüksək vəzifəli şəxslərinin korrupsiya əməlləri və məxfi dinləmələri, casusluq qalmaqalları, həmçinin ABŞ-ın hərbi cinayətləri ilə bağlı çox sayda məxfi sənədləri aşkarlayaraq dünya ictimaiyyətinə yayan avstraliyalı jurnalist Culian Assanj Ekvadorun Londondakı səfirliyində həbs olunub.**

Polisinin bəyanatında bildirilir ki, buna səbəb Ekvador hökumətinin 7 ildir diplomatik missiyanın ərazisində yaşayan Assanjın sığınacaq hüququnu ləğv etməsidir. Ekvador tərəfi öz qərarını avstraliyalı jurnalistin beynəlxalq konvensiyaları və diplomatik protokolu dəfələrlə pozması ilə izah edib.

London polisi bəyan edib ki, Assanjın həbsi 2012-ci ilin iyununda Vestminster magistral məhkəməsinin çıxardığı əmrə əsasən icra olunub və tezliklə məhkəmə qarşısına çıxrılanadək avstraliyalı jurnalist Londonun mərkəzindəki polis məntəqələrindən birində saxlanılacaq.

*Nəzərə alsaq ki, o, xeyli sirləri bilir və yayıb, o zaman jurnalistin həbsi yeni qalmaqallar yarada bilərmi?*

"Yeni Müsavat"a danışan **politoloq Nəzakət Məmmədova** bildirib ki, "Wikileaks" məsələləri ilə bağlı müəmmalar çoxdur: "Təbii ki, Assanjın məsələsi yeni qalmaqallar yaradıb və yaratmaqda davam edəcək. Bu məsələyə hətta BMT də münasibət bildirmişdi, eyni zamanda nəzərə alaq ki, bu məsələyə ABŞ, İngiltərə, Ekvador, İsveç, Avstraliya qarışıb. Faktiki olaraq Assanj məsələsi beynəlxalq qalmaqal yaradıb. Hətta onun sığındığı Londondakı Ekvador səfirliyinin Britaniya hökuməti tərəfindən diplomatik toxunulmazlıq statusunu qaldırmaq fikri də var idi. 1961-ci il Diplomatik münasibətlər haqqında Vyana konvensiyasına əsasən, diplomatik nümayəndəlik binalarının toxunulmazlıq hüququ var. Bu məsələyə görə də Britaniya polisi Ekvador səfirliyinə daxil olub Assanjı həbs edə bilmirdi. Lakin bir məsələ də var ki, əgər səfirlik, konsulluq binaları məqsədli şəkildə cinayətkarı gizlətmək üçün istifadə olunursa, o zaman diplomatik nümayəndəliyin yerləşdiyi ölkə onun toxunulmazlıq statusunu ləğv edə bilər. Bu, diplomatik münasibətlərdə çox nadir baş verir, lakin Assanj ucbatından Britaniya-Ekvador münasibətləri bu



həddə gəlmişdi. Bir məsələ də var ki, Assanjın cinayət məsuliyyətinə cəlb olunması heç də bir çoxlarının güman etdiyi kimi ABŞ dövlət sirlərinin yayılmasına görə deyildi. Doğrudur, o, ABŞ-da dövlətin düşməni elan edilib. Lakin Assanj iki isveçli qadına qarşı cinsi təcavüz ittihamı ilə cinayət məsuliyyətinə cəlb edilmişdi. Onun məsələsi Dünya Bankının keçmiş prezidenti Stross-Kan hadisəsisini xatırladır, yaxud Trampın ətrafında seçkiqabağı qadınlarla bağlı qalmaqalı".

**Politoloq söyləyib ki, bu kimi bəhanələrin altında siyasi məqsədlər var:**

"Assanj dünya informasiya savaşında yeni bir səhifə açıb. O, fövqəldövlətin hərbi, siyasi, diplomatik sirlərini yayıb. Snouden kimi Assanj da ABŞ dövlətinin məxfi sirlərini açıqlayıb. Sadəcə, ABŞ Snoudendən fərqli olaraq Assanjı ittiham edə bilmir, çünki onu ittiham etmək yüz minlərlə "Wikileaks" sənədlərinin doğruluğunu qəbul etmək olardı. Həmin sənədlərin doğruluğu isə Amerikanın dünyada apardığı siyasəti ifşa edir. Odur ki, Assanjı başqa ittihamlar əsasında həbs ediblər. Bununla belə, Britaniya Ekvadora zəmanət verib ki, Assanj ABŞ-a ekstradisiya olunmayacaq. Bu şərt daxilində Ekvador onun öz səfirliyində ingilis polisi tərəfindən həbsinə icazə verib. Əgər İngiltərə öz sözünün üstündə durmayıb, onu ABŞ-a ekstradisiya etsə, təbii ki, bu, böyük qalmaqala səbəb ola bilər. Hər halda, mən bu işin arxasında Assanjın təkbaşına dayandığına inanmıram. Bu, bir və ya bir neçə böyük dövlətin kəşfiyyatlarının ABŞ-a qarşı uğurlu əməliyyatı olub. Fövqəldövlətin yüz minlərlə məxfi sirlərinin açılması, yayılması Assanjın gücü daxilində deyil və onun niyə bunda maraqlı olması sual doğurur".

**N. Məmmədova qeyd edib ki, bu, ABŞ-ı dünyada nüfuzdan salma əməliyyatı idi və uğurla başa çatdı:** "Assanj isə qadınlara təcavüz ittihamı ilə meydanda təkbaşına qalan zəif fiqurdur. Bəzi ABŞ senatorları hətta Assanjı xain adlandıraraq onun fiziki məhvinə çağırıblar. Bununla belə real həyatda və virtual olaraq onun çoxlu tərəfdarları da var və onlar belə hesab edir ki, Assanjın həbsi internetdə, ümumiyyətlə dünyada söz azadlığına olan hücumdur, buna qarşılıq verəcəklər. Hətta İnterpol, ABŞ, İngiltərə, İsveç, Avstraliya hökumətlərinə kiberhücumlarla təhdid edirlər. "Time" jurnalı, "Guardian" qəzeti onu ilin adamı elan ediblər, 100 ən nüfuzlu şəxs sırasına daxil ediblər. "Amnesty International" təşkilatı da Assanjı cəsarətinə görə mükafatlandırıb. Assanj söz azadlığı, cəsarətli jurnalist araşdırmasına görə bir sıra mükafatlara layiq görülüb. Dünyada ona münasibətdə iki mövqe var: dövlət sirlərinə kiberhücumlar təşkil edib onu yayan kibercinayətkar və dünyada söz azadlığı carçısı. ABŞ yaxud başqa bir dövlət öz məxfi sirlərinin yayılmasına gəlincə, onu dövlət düşməni elan edir, lakin eyni hal başqa bir dövlətə qarşı baş versəydi yəqin ki, onu söz azadlığının carçısı, demokrat kimi təqdim edərdilər".

❑ **Əli RAİS,**
**"Yeni Müsavat"**

YENİ MÜSAVAT
N 78 (7248) 13 aprel 2019

# Azərbaycanda ilk meyvə plantasiyaları

## Artıq faraş meyvələr bazara daha ucuz çıxacaq...

**Yolumuz Bakının Zirə kəndinədir... İş adamı Mürvət Həsənlinin Azərbaycanda bir ilk olan faraş meyvə bağları bu il birinci dəfə nübarını verəcək. Ölkənin aqrar sektoru üçün mühüm yenilik olan bu "erkənci bağları" işıqlandırmaqla onun necə ərsəyə gəlməsini, texnologiyasını, ölkə iqtisadiyyatı, idxaldan asılılığın azalması üçün faydalarını izah etməyə çalışacağıq. Yolboyu Zirə kəndində yolkənarı hektarlarla ərazinin əkildiyini müşahidə edirik. Kənddə iri istixanalar salınıb. Zirə kəndi həm də Bakı bazarlarını ilin bütün fəsillərində təzə pomidor-xiyarla təmin edir. Bu ildən etibarən artıq Bakı bazarları faraş meyvəni də xaricdən deyil, Zirə bağlarından alacaq...**

### "Erkənci bağlar" Azərbaycanda...

Qeyd etdiyimiz kimi, bu bərəkətli torpaqlarda salınan faraş meyvə bağları **iş adamı Mürvət Həsənli**nin Azərbaycanda imza atdığı bir yenilikdir. Bu plantasiyalarda ərik, alça, şaftalı, nektarin (tüksüz şaftalı), üzüm kimi meyvələr yetişdirilir. M.Həsənli bizə məlumat verir ki, onun istixanalarında adı çəkilən meyvələr yetişdirilir və bunlara Anadolu türkcəsində "erkənci bağlar" deyilir: "Bu plantasiyalara "erkənci bağlar" deyilməsinin səbəbi odur ki, burada meyvələr zamanından bir ay öncə yetişir, bazara satışa çıxarılır. Gördüyünüz kimi, artıq ərik yetişib, bir həftə sonra biz onun yığımına başlayacağıq. Biz bu ağacları bir il öncə əkmişik, artıq meyvə verib. Özümüz məhsulun çox olmasına imkan vermədik ki, ağacın inkişafına mane olmasın. Artıq olan erikləri təmizlədik ki, budağa güc salmasın. Azərbaycanda bunu ilk olaraq biz etmişik. Arzu edirik ki, 10-15 belə bağ da olsun ki, biz bu məshulların xaricdə satışını da təşkil edə bilək".













**Bu ideyanın necə yaranmasına gəlincə, M.Həsənli deyir ki, bu təcrübəni qardaş Türkiyədən götürüb:** "Faraş meyvə bağları ilə ilk dəfə 2013-cü ildə Türkiyənin Mersin bölgəsində quşçuluqla bağlı müşahidə apardıqda, onların istixanalarını gördüm. O zaman meyvələrin yetişmə dövrü idi. Bir dəfə də may ayının 1-də yığım dövründə getdim ki, artıq yoxdur. Bu ideya ağlımda qalmışdı. 2016-cı ilin dekabrında bu istixanaların tikintisinə başladıq, 2017-ci ilin yanvar ayının 20-25-də bu ağacları əkdik. Artıq 1 il 3 ay keçib, ağaclar bar verib. Hələ ki hədəfimizdə daxili bazarlardır. Növbəti mərhələdə Rusiya bazarını hədəfləyirik. Türkiyədə və İranda da faraş meyvə bağları var. Bizdə yox idi, artıq ilk meyvə bağını yaratdıq".

### Faraş alça 10 dəfə ucuz olacaq...

İş adamı deyir ki, bəzi meyvələrin qiyməti bu dövr üçün 10 dəfə ucuzlaşa bilər: "Bu zamana qədər Azərbaycan faraş meyvəni xaricdən idxal edirdi , bu səbəbdən qiymətləri həddindən artıq baha olurdu. Biz bu gün marketlərə girərkən görürük ki, orada alçanın bir kiloqramının qiyməti 500-600 manat civarındadır. Biz isə yaxın günlərdə satışa başlayacağıq və qiymətlər bundan 10 dəfə aşağı olacaq. Hesab edirəm ki, artıq xaricdən faraş meyvə idxalı gələn ildən dayanacaq. Bizim istehsalımız imkan verir ki, daxili bazarı tam təmin edək. Hətta yəqin ki, Rusiya bazarına da çıxışımız olacaq və gələn ildən ixrac da edəcəyik".

Meyvə plantasiyalarından builki istehsal xaricə ixrac imkanı yaratmasa da, növbəti illərdə Rusiya bazarına Azərbaycanın faraş meyvəsi çıxa bilər: "Bu il ixrac imkanımız yoxdur, ona görə ki, bizim ağacların ilk ilidir. Gələn ildən artıq, ağacların tam meyvə verməyə başlayan ili olacaq. Bu baxımdan biz yüksək həcmdə tonlarla meyvə götürəcəyik. Həm yerli bazarlara, həm də xaricə ixracımıza şərait yaradacaq. Hazırda bizdə 4600 ədəd ərik ağacları var və biz bu il üçün 30-35 ton civarında ərik yetişəcəyini gözləyirik. Gələn ildən isə 120-130 tona kimi qalxacaq, 4-cü ildə isə 150-160 ton olacaq. Biz birillik ağaclara çox meyvə yükü vermək istəmirik, bu, ağacı inkişafdan saxlayır. Meyvələr yığıldıqdan sonra ağacların bütün kiçik budaqları budanacaq ki, daha sürətlə inkişaf etsin. Ağaclara aqrotexniki qulluq edilir, təbii gübrələr zamanında verilir. Azotunu , fosfatını veririk. 1 il 3 ayda aldığımız nəticə də göz önündədir. Suvarma sistemi tam avtomatik şəkildə qurulub. Bağın torpağı isə qumdur. Qumda olan inkişaf daha sürətli olur. Çünki qum isti olur, ağacın kökünün şaxələnməsinə, daha rahat getməsinə kömək edir. Bu torpaqda gil yoxdur. Bizim istixanalar 5 hissədən ibarətdir. Onlardan biri də 4 hektar 20 sot təşkil edən alça plantasiyasıdır. Alça istilikxanasında bizdə 3 sort alça var, bunlar göycə, splinter - yapon gavalısı da deyirik və bir də türklərin "can ərik" dediyi sort yetişdirilir. Yaxın 10 gündə biz məhsulu satışa çıxarmağı düşünürük. Bu ağaclar birillik olduğu üçün meyvə yükünü azaltdıq. Gələn il daha çox istehsal olacaq".

### Qiymətlər 50 faizdən çox ucuzlaşa bilər...

Həmsöhbətim qeyd edir ki, istixana şəraitində yetişən meyvənin digərlərindən dad və keyfiyyət baxımından heç bir fərqi yoxdur: "Sadəcə bağlı şəraitdə yetişir deyə, daha çox istilik yaranır və daha tez məhsul yığılır. Şaftalı plantasiyasından 15 gündən sonra məhsul yığa biləcəyik. Ərazisi 4 hektardan bir qədər artıqdır, 4200 ədəd şaftalı ağacımız var. Şaftalı bağında 4 növ məhsul var, onlardan biri yastı şaftalıdır, "Astoriya" sortu var. Daxili istehsal tam olaraq xaricdən faraş meyvə idxalının qarşısını alacaq. Hətta biz ixrac edəcəyik. Ölkəyə valyuta gətirəcəyik. Gələcəkdə bu plantasiyalar, istixanaların artması daxili bazarda bir rəqabət yaradacaq. Həm xaricdən gələn bütün meyvələri öyrənib onların yerli şəraitdə istehsalına nail olmalıyıq. Həm çəyirdəkli meyvələrin, həm də giləmeyvələrin istehsalı üçün Azərbaycanda kifayət qədər münbit şərait var. Dövlət proqramı çərçivəsində böyük maliyyə vəsaitləri tələb edən işlər görülüb, yolların çəkilməsi, kommunikasiya işlərinin görülməsi də sahibkarlara imkan yaradır. Son illər aqrar sektorun əksər sahələrində innovasiyaların tətbiq həmin məhsulların satış qiymətlərinin ucuzlaşmasına gətirib çıxaracaq. Qiymətlər 50 faiz ucuzlaşacaq. Məhsullar əllə yox, texnika vasitəsilə yığılacaq, suvarma sisteminin avtomatik olması, yerli suvarma təşkilatlarının regionlarda daha böyük işlər görməsi, aqroparkların yaradılması son nəticədə məhsulların maya dəyərinin iki dəfə aşağı düşməsi ilə nəticələnəcək. Bu isə o deməkdir ki, həm bazara çıxan məhsul ucuz olacaq. Həm də xaricə ixrac olunan məhsul daha çox gəlir gətirəcək, ölkəyə valyuta axını olacaq".

### Azərbaycan regionun "Hollandiyası" ola bilərmi?

İş adamı vurğuladı ki, Türkiyədən fərqli olaraq Azərbaycanın Rusiyaya ixrac imkanları daha çoxdur: "Çünki Mersindən Moskvaya meyvə 14 günə gedib çıxır. Biz isə məsafə baxımından yaxın olduğumuz üçün məhsulumuzu iki günə Moskva bazarına çıxara bilirik. Bizim bazar imkanımız onlardan üstündür. Mən hər zaman deyirəm ki, aqrar sektorun inkişafı ölkənin də inkişafı olacaq. Əhalinin iqtisadi rifahının yüksək olması üçün iqtisadiyyat çox güclü olmalıdır. Bu isə daxili istehsalın artmasından gedir. Hollandiyanın, Yaponiyanın və Azərbaycanın yararlı torpaq sahəsi, demək olar ki, eynidir. Ancaq Hollandiya ildə aqrar sektordan 60 milyard dollara yaxın gəlir götürür. 2016-cı ilin statistikasına görə biz əhalimizin 55-60 faizini yerli ərzaqla təmin edirik. Yaponiya da əhalisinin 50-55 faizini təmin edə bilir. Ancaq burada onu qeyd etməliyik ki, Yaponiyanın əhalisi 130 milyondur və onun 50-55 faizini təmin edir. Bizim Hollandiya ilə fərqimizə baxsaq, onlardan üstün cəhətlərimiz də var. Ərazimizdən iki bol sulu çay keçir, həm Kür, həm də Araz var. Suvarma problemi olmamalıdır. Subtropik zonamız var, cənub zonasında sitrus meyvələr bitir. Hollandiyanın üstünlüyü isə odur ki, Avropanın mərkəzində bazarı var. Bizim də Rusiya kimi böyük bir bazarımız var. 2019-2023-cü illər dövlət proqramı qəbul olunub, yol xəritəsi hazırlanıb. Kənd təsərrüfatının inkişafı üçün böyük layihələr keçirilir, dotasiyalar, subsidiyalar verilir. Son nəticə olaraq yaxın illərdə biz aqrar sektorda Avropanın Hollandiyası kimi inkişaf edə bilərik və öz məhsullarımızı xarici ölkələrə sata biləcəyik".

**M.Həsənli hesab edir ki, yaxın illərdə Azərbaycanın ixrac imkanları ciddi həcmdə artacaq**: "2017-2018-ci illərdə biz xarici ölkələrə - İraqa , İrana, BƏƏ-yə, Yaxın Şərqə yumurta ixrac etdik. Gələcəkdə yumurta, toyuq əti, meyvə və digər məhsulların istehsalından əldə etdiyimiz son məhsulların satışı ilə daha böyük bazarlara çıxacağıq. Gələn ildən bizim Yaponiyaya nar ixracımız olacaq. Bu il Rusiyaya 40 min tona qədər alma ixracı olub. Fındıq ixracında Azərbaycan dünyada 4-5-ci yerləri tutur. Gələcəkdə bütün sahələrin inkişafı ancaq ona yönəlib. Son dövrlər ölkə başçısı aqrar sektoru tam nəzarətə götürüb. Bundan sonra bu sektorun inkişafı birə beş qalxıb. Biz bu istixana qurduğumuz gündən bu günə kimi İqtisadiyyat Nazirliyi tərəfindən, cənab nazir tərəfindən, Şirzad Abdullayev tərəfindən dəfələrlə monitorinq olunub. Onlar dəfələrlə bu bağları gəziblər. Bu isə nazirliyin sahibkarlara diqqətinin nəticəsidir və onu göstərir ki, ölkənin inkişafında dövlət məmurları sahibkarın yanında olmalıdır. Burada 193 nəfər insan işlə təmin olunub. Meyvə yığımı dövründə mövsümü olaraq işçilərin sayı daha da artacaq və ilbəil də daha çox insanı işlə təmin etmək imkanımız olacaq. Bunların hamısı ölkə başçısının diqqəti, qayğısı və nəzarəti sayəsindədir. Cənab nazirin tez-tez monitorinq etməsi, nazirliyin əməkdaşlarının baş çəkməsi də bizim işimizə bir dəstəkdir. Yaxın gələcəkdə bizim dostlarımız da faraş meyvə bağlarının salınmasını planlaşdırırlar. Gələn il onlar da məhsul əldə edəcəklər. Ölkədə aqrar sektorda ciddi inkişaf var. Ölkənin süd məhsullarına, toyuq ətinə, yumurtaya olan tələbatı tam təmin olunur, qırmızı ətlə 70 faiz təmin olunur. Ərzaq məhsullarına görə ölkədən xaricə valyuta getməməlidir. Bizim təbii şəraitimiz imkan verir ki, aqrar sahə inkişaf etsin".

### İş adamlarına çağırış: "Pulunuzu ölkənizə yatırın..."

**Mürvət Həsənli iş adamlarına da səslənərək, onları əllərində olan vəsaiti xarici ölkələrdəki ölü yatırımlara deyil, ölkə daxilində istehsal sahələrinə yatırım etməyə səslədi:** "Bəzi iş adamları var ki, Azərbaycanda pulu qazanırlar, onunla xaricdə maya dəyəri 50-60 ilə çıxacaq obyektlər alıb kirayə verirlər. Pullarını orada batırırlar. Mən o iş adamlarına səslənirəm ki, pullarını gətirib öz ölkələrində yatırım etsinlər. Yeni iş yerləri açsınlar. Bu ölkənin vətəndaşı bu ölkəni sevməlidir. Övladın bu ölkədə pulsuz təhsil alır, valideynlərin bu ölkənin qayğısı ilə yaşayırsa, iş adamının da borcu bu ölkəyə yatırım etməkdir. Yeni iş yerləri açsınlar, istehsalı qursunlar, xaricə satıb ölkəyə valyuta gətirsinlər. Adam var ki, xaricdə 10 milyon dollara əmlak alıb, o pulu yaxın 60 ildə geri götürə bilməyəcək. Satdıqda isə yarı qiymətinə belə sata bilməyəcək. O pulu zamanında öz ölkəsinə aqrar sektora yatırsaydı, həm pulu artardı, var-dövlət qazanardı. Həm də ən azı 150 adamı işlə təmin edərdi".

❑ Nərgiz LİFTİYEVA,
Foto: Elçin ƏKBƏR

YENİ MÜSAVAT
N 78 (7248) 13 aprel 2019

# Əfvlə azadlığa çıxan gənclərlə necə davranmalı...

**Novruz bayramı ərəfəsində əfv sərəncamı ilə azad olunan siyasi fəallardan ikisi ilə bağlı gərginlik yaşanıb. Bayram Məmmədov polisə müqavimət göstərdiyi üçün 30 sutka inzibati cəza alıb, digər fəal Qiyas İbrahimov isə Bakı Şəhər Baş Polis İdarəsinə çağırılıb iki saat dindirilməsinə etiraz edib.**

Nəzərə çatdıraq ki, Novruz bayramı ərəfəsində imzalanan və 431 nəfərə şamil edilən əfv sərəncamı ilə 50-dən çox siyasi məhbus kimi tanınan şəxs də azad edilib. Bu, həm ölkə ictimaiyyəti, həm də beynəlxalq təşkilatlar tərəfindən müsbət qarşılanıb. Eyni zamanda bundan ölkə daxilində və xaricində narahat olan, sərəncama kölgə salınmasına çalışan pozucu qüvvələrin də olduğu şübhəsizdir. Bu səbəbdən Bayram və Qiyasla bağlı məsələdən sui-istifadə edənlərin ola biləcəyi də şəksizdir. O baxımdan ekspertlər həmin şəxslərlə aqressiv davranışları olsa belə, Azərbaycanın maraqları naminə daha fərqli davranılmasını doğru sayırlar.

Xüsusilə, Azərbaycanla Avropa İttifaqı arasında yaxın aylarda imzalanacaq saziş ərəfəsində bu cür halların baş verməsi ciddi suallar doğurur.





**Fərəc Quliyev:** “Azərbaycan beynəlxalq aləmə göstərməlidir ki...”
**Novella Cəfəroğlu:** “İmkan verməməliyik ki, Aİ ilə saziş ərəfəsində münasibətləri pozmaq istəyənlərin əllərinə bəhanə düşsün”

**Milli Dirçəliş Hərəkatı Partiyasının sədri, deputat Fərəc Quliyev** səslənən iddialara bu cür reaksiya verdi: “Doğrudur ki, Avropa İttifaqı ilə Azərbaycan arasında münasibətlərin yüksək səviyyəyə çatmasını istəməyən ciddi qüvvələr var. Ermənistan və Azərbaycana düşmən kəsilmiş dövlətlər sözsüz ki, bunu istəmir. Təəssüf ki, öz korporativ maraqları üçün həm Azərbaycan daxilində də bunun baş tutmamasını, yaxud yubanmasını istəyənlər var. Biz imkan verməməliyik ki, münasibətləri pozmaq istəyənlərin əllərinə bəhanə düşsün. Hər bir insan statusundan asılı olmayaraq qanunlarla doğru davranmırsa, qanunları pozursa, barəsində müvafiq tədbirlər görülməlidir. Heç kəs qanundan qaça bilməz. Məhbəsdə olmuş bir adam kimi deyə bilərəm ki, Allah hər kəsin qapısını açsın. Lakin birisinin statusu varsa, buna güvənib qanunları pozacaqsa, cavab verməlidir. Çox pis bir ənənə yaranıb. Dünən birini korrupsioner adlandırırlar, o şəxs həbs ediləndən sonra onu korrupsioner adlandıranlar siyasi məhbus kimi təqdim etməyə başlayırlar. Hüquq müdafiəçilərindən biri sizin qəzetə Hollandiyada yaşayan Leyla Yunusun siyasi məhbus biznesi qurduğundan danışıb. Azərbaycan beynəlxalq aləmə göstərməlidir ki, bizim məhkəmələr sərbəstdir, qanun qarşısında hamı bərabərdir, kimsə həbs olunursa, biz məhkəməyə təsir edə bilmərik. Digər tərəfdən biz çalışmalıyıq ki, birinə az cəza vermək mümkündürsə, onu edək. Yaxud birini həbs edən zaman ciddi problemlər yarana bilər, o zaman məsələyə ciddi yanaşılıb, vacib olan qərarı vermək lazımdır. Həm hökumət tərəfindən məsələ diqqətdə saxlanılmalıdır, həm də cəmiyyət buna hazır olmalıdır. Biz xarici dövlətlərin, QHT-lərin sifarişi ilə oturub duran ölkəyə çevrilməməliyik. Artıq məhkəmələrin tam sərbəstliyi barədə söz-söhbətlər gedir, insanların hamısının qanun qarşısında bərabər olmasından söhbət gedir. Biri qanunu pozacaqsa, ona deputat və ya siyasətlə məşğul olduğu üçün güzəştlər ediləcəksə, bu, qanun qarşısında bərabərlik sayılmaz. Ona görə həm dişli siyasət yürütmək, həm də Azərbaycana təsir etmək istəyənlərə fürsət verməmək lazımdır”.

**Hüquq müdafiəçisi Novella Cəfəroğlu** belə bir qüvvələrin olmasından söz açdı: “Azərbaycanda hansısa qüvvələr məqsədli şəkildə bu işlə məşğul olurlar. Bu iki gəncin məsələsi onlar azad ediləndə həll olunmuşdu. Sadəcə olaraq ayrı-ayrı məsələlər var. Onları açıqlamaq istəmirəm. Kiməsə vacib şəkildə lazımdır ki, Azərbaycanda bu uşaqlara təzyiq olsun və hansısa bir yolla bu şərait yaradılır. Bəlkə kimsə o gəncləri aqressiv davranmağa təhrik edir, yaxud da başqa bir səbəb var. Hökumətin onlara qarşı qərəzi olsaydı, azad olunmazdılar. Yaxud da əfv sərəncamı verilməzdi. Kimlərsə bundan məqsədli şəkildə istifadə edir. Azərbaycanla Avropa İttifaqı arasında saziş imzalanacaq. Çalışırlar ki, bu baş tutmasın. Ölkəmizə qarşı təzyiqlərin artmasını istəyirlər. Həmin qüvvələrin əllərinə imkan verməmək olmaz. Gənclər, azadlığa çıxmısınız, adaptasiya olunun. Kimisə təhqir etmək olmaz. 10 il sizə cəza verilib, amma 3/1-ni çəkməmiş azad edilmisiz. Bir balaca səbirli olun. Amma istənilən halda Bayramın həbs edilməsi doğru deyil. Hakimiyyətdə olsaydım, onların heç birini həbs etməzdim. Kimlərsə bundan istifadə edib, ölkəmizə qarşı qərəzli addımların atılmasına çalışa bilər”.

❑ **Cavanşir ABBASLI,**
**“Yeni Müsavat”**

# Müxalifət İbrahimbəyovun “zorən vahid namizəd oldum” iddiasına nə dedi?

## İqbal Ağazadə və Əli Əliyev Milli Şura ideoloqunun son müsahibəsindən danışdılar

**“Mən həmişə qeyd etmişəm ki, siyasətlə peşəkar siyasətçilər məşğul olmalıdırlar”. Bu fikri “Yeni Müsavat”a Ümid Partiyasının sədri İqbal Ağazadə kinorejissor, Milli Şuranın yaradıcısı və ideoloqu Rüstəm İbrahimbəyovun son müsahibəsi haqda danışarkən bildirdi.**

**Ümid sədrinin sözlərinə görə, siyasətin içində olmayan birinin öhdəliklər götürməsi, prezidentlik iddiasına düşməsi axırda belə nəticələnir:** “Siyasətlə peşəkarlar məşğul olmalıdırlar. Mən indi bilmirəm ki, İbrahimbəyovu həmin dövrdə Milli Şuradakılar prezidentliyə namizəd olmağa təhrik ediblər, ya yox, lakin siyasət siyasətçinin işidir”.



İqbal Ağazadə

**İ.Ağazadə “müxalifət düşərgəsində bundan sonra vahid namizəd anlayışı bitdimi” sualına belə münasibət sərgilədi:** “Bizim üçün demokratik seçki istiqamətində çalışmaq vacibdir. Demokratik seçki mühitinin yaradılmasına nail olmalıyıq. Hamı seçkiyə qatılsın və mübarizə aparsın. Bizim üçün vahid namizəd anlayışı olmayıb”.

**Vətəndaş və İnkişaf Partiyası (VİP) sədri Əli Əliyev** isə qeyd etdi ki, həmin dövrdə İbrahimbəyovun namizədliyini tənqid edən az saylı siyasətçilərdən biri olub: “Həmin vaxt heç kim onu tənqid etmirdi, hamı ətrafına toplaşmışdı. Mən hesab edirəm ki, kənar ölkənin vətəndaşı olan birinin prezidentliyə namizədliyi və prezident olması dövlətə ziyan gətirə bilərdi. Ancaq İbrahimbəyov qeyri-səmimi danışıb. Əgər doğurdan da 75 yaşlı ziyalını aldadıb seçkiyə qatırlarsa, o zaman iradəsiz bir adam necə prezident ola, ölkəni idarə edə bilərdi?

Üstəlik, söhbət Qarabağ problemi olan, müxtəlif güclərin maraqlarının toqquşduğu bir ölkədən gedir. O halda İbrahimbəyov necə dövlətə rəhbərlik edəcəkdi? Yəni, namizədliyini iradəsiz irəli sürdüyünü, təhrik olunduğunu deməsi qeyri-səmimilikdir".

VİP sədri hesab edir ki, 2013-cü il layihəsi heç də İbrahimbəyovun iradəsizliyinin nəticəsi olmayıb:

“Bu, kənar güclərin, qurumların layihəsiydi, onun mərkəzində İbrahimbəyov fiquru dayanırdı, o da prosesə ”Milyarderlər İttifaqı" üzvü kimi qatılmışdı".

**Ə.Əliyev Ukrayna nümunəsini misal göstərərək bildirdi ki, demokratik prosesdə heç nəyi proqnozlaşdırmaq olmur:** “Aktyor qalib gələ bilər. O baxımdan vahid namizədlə getmək yox, qoy hər kəs seçkidə iştirak eləsin. Lakin daha yaxşı olar ki, hərə öz işi ilə məşğul olsun”.

Xatırladaq ki, kinodramaturq Rüstəm İbrahimbəyov “Dojd” telekanalına müsahibəsində deyib ki, prezidentliyə namizəd olmaq istəmirmiş.

**Onun sözlərinə görə, müxalifət qüvvələri onu prezident postuna öz namizədliyini irəli sürməyə təhrik ediblər. Və o, öz keçmiş qərarına görə çox heyfsilənir:** “Ziyalılar Forumu yaratdım, sonra bu forum tədricən dağıdıldı, bu səbəbdən mən və yoldaşlarım, necə deyərlər, radikallaşdıq və yeni qurum yaradaraq onu Demokratik Qüvvələrin Milli Şurası adlandırdıq. Və mən 25-30 il ərzində ilk dəfə özünü müxalifət adlandıran bütün gücləri birləşdirdim, məhz ona görə ki, siyasətdən kənar insan idim. Onlar bir-biri ilə vuruşurdular və bu gün də vuruşmağa davam edirlər”.

**R.İbrahimbəyov deyib ki, seçkilər məsələsi ortaya gələndə heç gözləmədiyi halda ona məhz namizədliyini irəli sürəcəklərini bildiriblər:** “Mən uzun müddət onlara izah etdim ki, prezident fəaliyyətindən mənim qədər uzaq olan adam yoxdur. Dedilər, onda biz gedəcəyik. Və nəticədə onlar dağılışdılar, çünki mən öz namizədliyimi irəli sürmür və qəti surətdə bundan imtina edirdim. Bundan əlavə, onları xəbərdar edirdim ki, Azərbaycan vətəndaşı olmaqla bərabər, mən həm də Rusiya vətəndaşıyam və bu səbəbdən böyük problemlər olacaq”.

❑ **Emil SALAMOĞLU,**
**“Yeni Müsavat”**

YENİ MÜSAVAT
N 78 (7248) 13 aprel 2019

# "Azərbaycan müxalifəti təkcə AXCP, Müsavat, AXH-dən ibarət deyil"

## Tural Abbaslı: "Özünə müxalifət deyən bəzi qüvvələr hakimiyyətə gələrsə, vəziyyət gərginləşə bilər"

**Hazırkı müxalifət hakimiyyətə gələrsə, bunun Azərbaycana ciddi təhlükələr yaradacağı yönündə fikirlər son vaxtlar intensiv şəkildə səslənir.**

Belə ki, hazırda müxalif qüvvələr arasındakı əlaqələrdə böhran yaşanır. Partiyalar nəinki bir-birini qəbul etmir, hətta "söz savaşı" ilə biri digərini sıradan çıxarmağa, zəiflətməyə çalışır. İclaslarda əlbəyaxa davalar da yaşanır. Belə vəziyyətdə bu qüvvələr hakimiyyətə gələrsə, mövcud situasiyanın orada da təkrarlanacağı bildirilir. Üstəlik də 1992-93-cü illərdəki AXC hakimiyyəti nümunəsi xatırladılır.

Son olaraq bu məsələ **BAXCP sədri, deputat Qüdrət Həsənquliyev**in açıqlamalarından sonra aktuallaşıb. Partiya sədri deyib: "İnsanlar düşünəndə ki, elementar əxlaqa və mənəvi dəyərlərə sahib olmayan bu qaragüruh hakimiyyətə gələ bilər, onları dəhşət bürüyür. Bəzi insanlar mənə deyir ki, Qüdrət bəy, bu tərbiyəsizlər "niyə xalq onların çağırışlarına cavab vermir?" iddiası ilə xalqı təhqir edir, təkcə özlərini yox, bütün müxalifəti gözdən salırlar. Sosial şəbəkələrdə onların debatlarına bir az qulaq asın və bu ünsürləri xalqımızı təmsil edəcək iqtidar kimi gözünüz önünə gətirin. Onlar ölkənin siyasi həyatını o qədər korlayıblar ki, insanlar yalnız onların hakimiyyətə gəlməsi barədə düşünəndə dəhşətə gəlmirlər, həm də ona görə dəhşətə gəlirlər ki, birdən İlham Əliyev əlini yelləyib desə ki, "sağ olun, mən getdim", o zaman bu ölkə 93-cü ilin Gəncə qiyamı zamanı düşmüş vəziyyətdən də pis günə qalacaq. O halda nə zaman o zaman deyil, nə də ikinci Heydər Əliyev də yoxdur ki, ölkəni dağılmaqdan xilas edə bilsin".

*Bəs müxalifətçilər özləri bu haqda nə düşünür?*

**AĞ Partiya başqanı Tural Abbaslı** deyilən fikirlərlə razılaşmır: "Düşünmürəm ki, hakimiyyət dəyişərsə və bugünkü müxalifət hakimiyyətə gələrsə vəziyyət daha da pisləşər. Çünki hazırkı iqtidar uzun illərdir ki, kifayət qədər pis idarəçilik edib. İnkar etmirəm ki, bu gün özünə müxalifət deyən bəzi qüvvələr hakimiyyətə gələrsə vəziyyət gərginləşə bilər. Ancaq belə qüvvələrin hakimiyyətə gəlmək şansları çox az olduğu üçün bunu nəzərə almıram. Sadəcə olaraq hazırkı iqtidara bu məsələni bu formada təqdim etmək sərf edir. Ola bilsin ki, hazırkı müxalifət hansısa iclaslarda və toplantılarda daha emosional müzakirələr aparır. Bəzən bu emosionallıq ən yüksək həddə də qalxa bilir. Ancaq bu o demək deyil ki, müxalifət iqtidara hazır deyil. Həmçinin bu gün müxalifətin böyük əksəriyyəti zamanında bu dövləti idarə edən insanlardır. Hətta hakimiyyətdə təmsil olunan bir çox iri ranqlı məmurlar belə zamanında hazırkı müxalifət düşərgəsindən çıxıb. Əgər iqtidar müxalifət düşərgəsində canlı yayımlanan iclaslardakı dartışmalardan narahatdırsa, dünyanın ən inkişaf etmiş dövlətlərinin siyasi səhnəsinə nəzər yetirsin. Orada bizim iqtidardakı kimi hər kəs, hər şeyə ləbbeyk demir. Hər şey qızğın polemikalardan və diskussiyalardan sonra qəbul olunur. Zatən qurucu və faydalı diskussiyalar inkişafın təməl prinsiplərindən biri, bəlkə də birincisidir".

**VİP sədri Əli Əliyev** bu cür düşüncələrin haqsız olduğunu söylədi: "Əvvəla onu deyim ki, bütün mədəni dünya bu proseslərdən keçib. Hələ bir əsr əvvəl bizim xalqımız demokratik dövlət qurub, parlamentarizmin bünövrəsini atıb. Bu yanlış fikirdir ki, müxalifət hakimiyyətə gələrsə, ölkə dağılar. Ukraynada komik prezidentliyin bir addımlığındadır. Nədir, demədilərmi ki, ölkə "95-ci kvartal"a çevriləcək, seçkiləri dayandıraq? ABŞ-da biznesmen Tramp dünya nəhənginə rəhbərliyə keçdi. Amerika seçki nəticələrini ləğv etməli idimi? İtaliyada bizim anlayışımızla aktyor və populistlərdən ibarət hökumət mövcuddur. Bu sərsəm fikri cəmiyyətə hopdururlar ki, "hakimiyyət getsə, ölkə dağılar" tezisləri hakim olsun. Azərbaycan müxalifəti iqtidara gəlsə, ölkə indikindən xeyli yaxşı olar, korrupsiyanın miqyası azalar və bir çox faydalı məsələlər həllini tapar".

**AMİP katibi Əli Orucov** müxalifətin üç qurumdan ibarət olmadığını qeyd etdi: "İndiki müxalifətin hakimiyyətə gələcəyi təqdirdə hansısa pis şeylərin baş verəcəyi, ölkənin idarəolunmaz hala gələcəyi ilə bağlı fikirlər iqtidarın mətbəxində hazırlanan təbliğatdır. Xalq həmişə bu təbliğatla qorxudulub, şüurlara yeritməyə çalışılıb ki, bunların alternativləri, əvəzediciləri yoxdur. Əslində isə bu, faydalı olmayan yanaşmadır. Hökumətlər əvəz edilməyəndə onlar şişir, özlərinə vurğunluq və arxayınçılıq yaranır. Ona görə də nə istəyirlər onu da edirlər. Azərbaycanda siyasi qüvvələri hakimiyyətə xalq gətirib, xalq da həmin hakimiyyətdən endirməlidir. Bunun da yeganə yolu demokratik seçkilərdən keçir. Rəqabət bütün sahələrdə olmalıdır. Dialektik fəlsəfənin əksiklərin mübarizəsi və vəhdəti qanuna görə mübarizə olmadan inkişaf da mümkün deyil. Cəmiyyətdə olduğu kimi, siyasi partiyaların daxilində də fikir müxtəlifliyinin olması labüddür. Hamı eyni cür düşünərsə, alternativlik və daha üstün ideyalar üzə çıxa bilməz. Bunu iqtidar mənsubları çox halda anarxiya kimi qəbul edirlər. Doğrudur, Elçibəy hakimiyyəti dövründə idarəçilikdə çox ciddi qüsurlar və çatışmamazlıqlar vardı. Təcrübəsizlik də öz təsirini göstərdi. Bütün bunları aradan qaldırmaq mümkün olmadığından və sosialist təfəkküründən tam imtina edilmədiyindən AXC hakimiyyəti iflasa uğradı. Lakin bunun üzərindən uzun müddət vaxt keçib və siyasilər və siyasi qüvvələr kifayət qədər təcrübə toplaya biliblər. Konkret olaraq AMİP ölkəni yüksək səviyyədə idarə etmək gücündədir. İkincisi də partiya olaraq biz həmişə bəyan edirik ki, iqtidara gələriksə sadiqliyə, qohumbazlığa, yerlibazlığa deyil, təcrübəyə, yüksək peşəkarlığa, vətənpərvərliyə, dövlətinə və millətə bağlılığa, şəffaflığa üstünlük veriləcək. Bu gün hakimiyyətin özündə də belə kadrlar, belə məmurlar var. Onların potensiallarından istifadəyə imkan yaratmaq dövlətin özü üçün də faydalı olardı. Bu insanlardan imtina etmək olmaz. Müxalifətin daxilində yetişmiş tam hazırlıqlı kadrlar var. Ancaq bu və ya digər səbəblərdən onların üzə çıxarılması, tanıdılması ciddi problem olaraq qalır. Çünki işlə, çalışdıqları sahələrdə təzyiq altına salınma təhlükəsi qalır. Digər tərəfdən indiki hakimiyyətin daxilində guya monolitlik, birlik varmı? Yoxdur. İndiki məmurlarla AXC hakimiyyəti dönəmində olan məmurların prinsipcə elə bir fərqləri yoxdur. Əvvəlki hakimiyyətin dönəmində də sadiqlik, partiya yaxud təşkilat mənsubiyyəti, tanışlıq, təcrübəsizlik, hərc-mərclik əsas götürülürdü, indikində də. Mühüm dövlət vəzifələri keçmiş kommunistlərin əlində idi, indi də eynidir. Ona görə də fundamental dəyişən heç nə yoxdur. Amma Azərbaycanda bütün bunları islah edib, mütərəqqiliyi, novatorluğu gətirə biləcək siyasi qüvvələr və kadrlar var. Gec ya tez, ölkədə ciddi reformalar və köklü dəyişikliklər olacaq. Azərbaycan müxalifəti təkcə AXCP, Müsavat, AXH-dən ibarət deyil".







**Əli Əliyev:** "Bu, yanlış fikirdir ki, müxalifət hakimiyyətə gələrsə, ölkə dağılar"

**Əli Orucov:** "Hamı eyni cür düşünərsə, alternativlik və daha üstün ideyalar üzə çıxa bilməz"

❑ **Cavanşir ABBASLI, "Yeni Müsavat"**

# Bakcell abunəçiləri minlərlə kinoya pulsuz baxmaq imkanı əldə edib

## Bakcell "MEGOGO" ilə əməkdaşlığa başlayıb




**Azərbaycanın İlk Mobil Operatoru və Ən Sürətli Mobil İnternet Provayderi Bakcell şirkəti məşhur MEGOGO video xidməti ilə əməkdaşlığa başlayıb. Bu əməkdaşlıq çərçivəsində Bakcell abunəçiləri 10 minə qədər lisenziyalı film, cizgi filmi, televiziya serialı və digər video məzmuna 12 aya qədər PULSUZ baxmaq imkanı qazanıblar.**

MEGOGO MDB ölkələri və Şərqi Avropa regionunun ən böyük beynəlxalq OTT/VOD xidmətləri təminatçısıdır. Bakcell və "MEGOGO"nun birgə eksklüziv təklifində ən vacib məqamlardan biri də bu paketə Azərbaycan dilinə dublyaj edilmiş 400-dən çox filmin daxil edilməsidir.

Xidmətə bütün Bakcell abunəçiləri qoşula bilər (Cin, Klass və Biznes individual). Bu fürsətdən yararlanmaq üçün müştərilər öz Bakcell nömrələri ilə www.megogo.net ttp://www.megogo.net Internet səhifəsində və ya "Google Play Store" və "Appstore"dan yüklənilən MEGOGO mobil tətbiqetməsində qeydiyyatdan keçməlidir. Abunəçinin qoşulduğu tarif paketindən asılı olaraq xidmətə 6-12 ay arasında pulsuz abunəlik təqdim edilir. PULSUZ istifadə müddəti bitdikdən sonra abunəçilər xidmətdən ayda cəmi 3 AZN xidmət haqqı ödəməklə yararlana bilərlər.

Qeyd edək ki, bu tərəfdaşlıq çərçivəsində MEGOGO xidmətindən 5 fərqli cihazda və 30-dan çox cihaz platformasında istifadə etmək mümkündür. Xidmətdən istifadə etmək üçün kəsintisiz internet bağlantısı (mobil və yaxud stasionar) tələb olunur.

Bu eksklüziv təklif və Bakcell şirkətinin digər sərfəli məhsul və xidmətləri barədə daha ətraflı məlumat www.bakcell.com ttp://www.bakcell.com səhifəsində yerləşdirilib.

Azərbaycanın ən müştəri yönümlü və innovativ telekommunikasiya xidmətləri təchizatçısı olan Bakcell öz abunəçilərini rəqəmsal müştəri təcrübəsi ilə yanaşı ən yeni məhsul və xidmətlərlə təmin edir. Şirkət bunun üçün zəruri olan sürətli və yüksək keyfiyyətli mobil rabitə şəbəkəsini qurmağa nail olub. Bakcell müasir mobil rabitə istifadəçilərini bundan sonra da ən son, ən rahat və ən maraqlı xidmətlər ilə təmin etmək məqsədilə innovasiya sahəsində İLK-lərə imza atmağa davam edəcək.

YENİ MÜSAVAT
N 78 (7248) 13 aprel 2019

# Avropadakı kimi ölkəmizdə də velosipedlə işə gedib-gələn olacaqmı?

## Ərşad Hüseynov: "Velosipedin real nəqliyyat, yerdəyişmə vasitəsi kimi qəbul edilməsi üçün təbliğat işləri görülməlidir"

**Artıq ölkəmizdə də yollarda velosiped zolaqları və duracaqları yaradılacaq. Belə ki, prezident İlham Əliyevin 27 dekabr 2018-ci il tarixli sərəncamı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasında yol hərəkətinin təhlükəsizliyinə dair 2019-2023-cü illər üçün Dövlət Proqramı"nda bildirilir ki, 2019-2023-cü illərdə avtomobil yollarında və küçə-yol şəbəkəsində velosiped zolaqlarının və duracaqlarının yaradıla biləcəyi ərazilər müəyyən ediləcək, bununla bağlı müvafiq təkliflər hazırlanacaq və tədbirlər görüləcək.**



Bundan başqa, kənd təsərrüfatı və texnoloji təyinatlı nəqliyyat vasitələri üçün onların hərəkətinə icazə verilməyən avtomobil yollarında mümkün olan yerlərdə paralel yollar (hərəkət zolaqları) yaradılacaq və ya digər müvafiq tədbirlər görüləcək, eyni istiqamətdə bir hərəkət zolağı olan yolların müvafiq sahələrində astagedən nəqliyyat vasitələrini ötüb keçmək üçün qısa məsafəli əlavə hərəkət zolaqları təşkil olunacaq.

Həmçinin monitorinqlər aparmaqla respublika əhəmiyyətli avtomobil yollarında və avtomagistrallarda avtomobil yollarının örüş-otlaq sahələrindən və heyvandarlıq təsərrüfatlarının geniş yayıldığı ərazilərdən keçən hissələrində təhlükəsizlik qaydalarına uyğun mal-qara keçidlərinin sayının optimallaşdırılması nəzərdə tutulur.

Qeyd edək ki, paytaxt Bakıda velosiped zolaqları və duracaqları yaradılması çoxdan gözlənilən və arzuedilendir. Məlum olduğu kimi, əgər bir şəhərdə velosiped yolları yaradılıbsa, deməli, orada tıxac problemi qismən də olsa həllini tapıb, sakinləri daha rahat hərəkət edir, daha çox təmiz hava qəbul edir. Araşdırmalara görə, dünyada istehlak edilən enerjinin və kükürd qazı tullantısının təxminən 25 faizi nəqliyyat sektorunun payına düşür.

Hazırda Avropanın bir çox ölkələrində velosipeddən geniş istifadə olunmaqdadır və nəqliyyatın bu növünə kifayət qədər maraq var. Hətta tez-tez avropalı millət vəkilləri, nazir, nazir müavinlərinin işə velosipedlə gedib-gəlməsi haqda məlumatlara rast gəlirik.

Məlum olur ki, dünyada ən çox niderlandlılar velosipeddən istifadə edir. Belə ki, Niderlandda əhalinin 99,1 faizi velosiped sürür. Danimarkada əhalinin 80,1 faizi, Almaniyada isə 75,8 faizi velosipeddən istifadə edir. Həmçinin bu cür ölkələrdə hər 100-200 metrdən bir velosipedin təkərinə hava vurmaq üçün yerlər var. Həmçinin velosipedlərin ehtiyat hissələrinin, təmirinin geniş təşkili həyata keçirilir.

Azərbaycana gəldikdə isə bu bir faktdır ki, ölkəmizdə hələ də çox az sayda insan velosipedə nəqliyyat vasitəsi kimi yanaşır. Əksəriyyət ondan yalnız idman aləti kimi istifadə edir. Hələ ki, bu günə qədər hansısa vəzifəli şəxsin velosipedlə işə gedib-gəlməsi ilə rastlaşmamışıq.

*Bəs, görəsən yaxın gələcəkdə avtomobil yollarında və küçə-yol şəbəkəsində velosiped zolaqlarının və duracaqlarının yaradılması bu vəziyyəti dəyişə biləcəkmi?*

Mövzu ilə bağlı **ekspert Ərşad Hüseynov** "Yeni Müsavat"a danışıb: "Bu məsələ ilə bağlı ciddi işlər görülməlidir. Qeyd etdiyiniz kimi, hazırda ölkəmizdə velosipeddən ya idman aləti, ya da uşaq oyuncağı kimi istifadə edilir. Burada görüləcək işlərdən biri cəmiyyətdə bu düşüncənin dəyişdirilməsi, velosipedin real nəqliyyat, yerdəyişmə vasitəsi kimi qəbul edilməsinə nail olmaqdır. Bunun üçün də təbliğat, təşviqat işləri görülməlidir. Təbliğ olunmalıdır ki, velosipedlə də tam təhlükəsiz olaraq, rahat şəkildə evdən işə və yaxud, işdən evə getmək olar.

Ümumiyyətlə, velosipeddən istifadənin müxtəlif faydaları var. Ən əsası bunu həm ondan istifadə edən şəxs, həm də cəmiyyət üçün faydası var. Belə ki, avtomobillərlə müqayisədə velosiped çox ucuzdur, istismar xərcləri də çox cüzidir, təmir məsələləri də çox asan başa gəlir. Məsələn, çox az hallarda təkərinin təmirinə ehtiyac olur və sairə...

Digər tərəfdən, velosiped sağlamlığa da faydalıdır. Məsələn, velosiped sürərkən xeyli fiziki hərəkət etmiş oluruq. Müasir dövrümüzdə daha çox oturaq həyat tərzi keçirdiyimiz bir vaxtda sağlamlığımızın, fiziki durumumuzun yaxşı inkişaf etməsi üçün çox gözəl bir vasitədir. Yeni evdən-işə və yaxud əksinə hərəkət edərkən, həm də idman etmiş olarıq. Beləliklə, velosiped fizioloji hərəkət ehtiyacını velosiped ödəyə bilir.

Cəmiyyət üçün faydası ondan ibarətdir ki, velosipedin xüsusi gediş yollarına, duracaqlarına ehtiyac yoxdur. Həmçinin ekoloji baxımdan velosiped heç bir şəkildə atmosferi çirkləndirmir, səs salmır. Velosipeddən istifadə edərkən lazım olan məkan, avtomobillər üçün lazım olan məkandan təxminən 7-8, hətta 10 dəfə kiçik olur. Məsələn, bir avtomobilin yer tutduğu məkandan 5-6 velosipedçi eyni zamanda rahat şəkildə istifadə edə bilər.

Yeni velosiped üçün yolların genişlənməsinə, bunun üçün külli-miqdarda vəsaitin xərclənməsinə ehtiyac qalmır. Həmçinin nəqliyyatda velosipeddən istifadə edilərsə, tıxac probleminə də son qoyular.

Bildiyiniz kimi, son illərdə inkişaf etmiş ölkələrdə avtomobilləşmə zirvəyə doğru gedirdi. Buna görə də tədricən avtomobilsiz nəqliyyata keçmək qərarına gəlib, velosiped infrastrukturu yaratdılar. Beləliklə, həmin ölkələrdə kütləvi şəkildə velosipeddən istifadə etməyə başladılar.

Doğrudur, bugünkü dövrdə Bakıda və ölkənin digər regionlarında velosiped üçün infrastruktur, yol yoxdur. Bunun üçün də şəbəkələşmiş velosiped zolaqları yaratmaq lazımdır. Həmçinin yol hərəkəti qaydalarında dəyişikliklər edilməlidir. Velosipedçi ilə avtomobil sürənin və yaxud velosipedçi ilə piyadanın yanaşı hərəkətinin incəlikləri cəmiyyətə çatdırılmalıdır".

**❑ Xalidə GƏRAY, "Yeni Müsavat"**

# Bakının Baş Planını Almaniyanın "AS+P" şirkəti hazırlayacaq

## Prosesin 2-ci mərhələsinin reallaşdırılması fazasına start verilir

**Bakının Baş Planının hazırlanması ilə bağlı açıq tenderin qalibi Almaniyanın "AS+P" şəhərsalma şirkəti olub.**

*Bu barədə "Report"a Dövlət Şəhərsalma və Arxitektura Komitəsindən (DŞAK) bildirilib.*



Məlumatda deyilir ki, tender bir çox aparıcı şəhərsalma və memarlıq şirkətinin marağını cəlb edib. Dünyanın müxtəlif ölkələrini təmsil edən 20-yə yaxın iri beynəlxalq şirkət tərəfindən iştirakla bağlı tender komissiyasına müraciət olunub. İştirakçıların təkliflərinin dəyərləndirilməsi beynəlxalq təcrübə, işçi heyətinin peşəkarlığı, yanaşma tərzi, qiymət və 40-dan çox digər meyar üzrə hərtərəfli təhlil əsasında aparılıb. Tenderdə iştirak üçün müraciət etmiş şirkətlərin əvvəlki illərdə reallaşdırdıqları işlər sırasında Paris, Frankfurt, London, İstanbul, Çikaqo kimi iri şəhərlərin planlaşdırılması layihələri qeyd oluna bilər.

Qalib gəlmiş "AS+P" - qərargahı Almaniyanın Frankfurt şəhərində yerləşən, geniş beynəlxalq təcrübəyə malik olan aparıcı şəhərsalma və memarlıq şirkətidir. 1964-cü ildə təsis olunmuş "AS+P" şirkəti tərəfindən bu günədək dünyanın müxtəlif ölkələrində 2000-dən çox layihə uğurla icra olunub. Şirkətin təcrübəsi Almaniyanın Münhen, Köln və Frankfurt, Misirin Qahirə və İsgəndəriyyə, həmçinin Sürix, Tbilisi, Şanxay, Moskva, İstanbul və bir çox digər tanınmış şəhərlərin ərazi planlaşdırılması sənədlərinin hazırlanmasını əhatə edir.

Beləliklə, Dövlət Şəhərsalma və Arxitektura Komitəsi əməkdaşlığa cəlb etdiyi "AS+P" şirkəti ilə birlikdə Bakının Baş planının hazırlanması prosesinin 2-ci mərhələsinin reallaşdırılması fazasına start verir. Bu mərhələdə görüləcək işlər 1-ci mərhələdə "Boston Consulting Group" beynəlxalq məsləhətçi şirkətinin iştirakı ilə Komitə tərəfindən hazırlanmış Bakı şəhərinin inkişaf konsepsiyası ilə müəyyənləşdirilmiş inkişaf prioritetləri üzərində qurulacaq.

Baş planın hazırlanması prosesinin 2-ci mərhələsində şəhər ərazisinin strateji və çoxsəviyyəli planlaşdırılması, habelə əsas inkişaf göstəriciləri üzrə modelləşdirmə ilə bağlı texniki işlər aparılacaq. Nəzərdə tutulan bu çoxşaxəli kompleks fəaliyyət çərçivəsində müxtəlif inceləmə səviyyəsində bir sıra istiqamət üzrə proqramlar işlənəcək. "Ərazilərin tarazlı istifadəsi və inkişafı", "Yol-nəqliyyat infrastrukturunun və ictimai nəqliyyat sisteminin inkişafı", "Ətraf mühitin və ekoloji durumun yaxşılaşdırılması", "Mühəndis-kommunikasiya sisteminin inkişafı", "İctimai məkanların inkişafı", "Əsaslı tikinti və tikinti sıxlığının tənzimlənməsi" və digər proqramlar paytaxtın Baş planı üzərində işin əsas tərkib hissələri kimi nümunə gətirilə bilər.

Bakının Baş planının hazırlanması işinin 2020-ci ilin sonunadək başa çatdırılması və sənədin yekun layihəsinin təsdiq üçün Azərbaycan hökumətinə təqdim olunması nəzərdə tutulur. Ölkə qanunvericiliyinə uyğun olaraq Baş plan şəhər ərazisi daxilində torpaqlardan şəhərsalma məqsədləri baxımından istifadə növlərini müəyyənləşdirir və növbəti 20 il ərzində şəhərin inkişafında iştirak edən bütün qurumlar tərəfindən bu istiqamətdə fəaliyyətdə rəhbər tutulacaq əsas sənəddir.

"DŞAK paytaxtın sistemli və davamlı inkişafında strateji əhəmiyyətə malik əsas şəhərsalma sənədi olan Bakının Baş planının vaxtında və keyfiyyətli hazırlanması məqsədilə bütün resurslarını səfərbər edib, bu prosesin qanunvericiliyin tələblərinə uyğun və aparıcı dünya təcrübəsi nəzərə alınmaqla təşkili üçün bütün səylərini əsirgəməyəcək", - məlumatda qeyd olunub.

YENİ MÜSAVAT
N 78 (7248) 13 aprel 2019

# Sudanda hakimiyyətə yenə hərbçilər gələ bilər

## İqtidarla müxalifət anlaşmadı; son sözü meydanlar deyəcək

**Aprelin 11-də bir həftə davam edən etirazlardan sonra Sudan ordusu prezident Ömər əl-Bəşiri istefaya göndərib. Hərbçilər paytaxtda təhlükəsizliyi nəzarətə götürüb və prezident əl-Bəşirin yaxın adamları, həmçinin hakim Milli Konqres Partiyasının 100-ə yaxın rəhbər şəxsini həbs edib.**

**Bundan sonra ordunun hakimiyyətə əl qoyduğu rəsmən bəyan edilib.** Daha dəqiqi hadisələr aprelin 10-da Ali Təhlükəsizlik Komitəsinin toplantısından sonra baş tutub. Toplantıya prezident Ömər əl-Bəşir qatılmayıb. Generalların Bəşirsiz keçən toplantısından sonra isə ordu Xartumun mərkəzinə yeridilib və mühüm dövlət obyektləri, o cümlədən mərkəzi telekanal mühasirəyə alınıb. Daha sonra isə Ömər əl-Bəşirin istefa verdiyi, ölkəni Hərbi Keçid Şurasının idarə edəcəyi elan olunub. Rəsmi olaraq çevrilişdən sonra ölkəyə müdafiə naziri, birinci vitse-prezident Əhməd Avad ibn Auf rəhbərlik etməyə başlayıb.

**Qeyd edək ki, Hərbi Keçid Şurasının əmri ilə parlament, hökumət, Prezident Administrasiyası, eləcə də yerli hökumətlər buraxılıb.** Bundan başqa hərbçilər iki il ərzində heç bir seçki və yeni mülki hökumətin olmayacağını bəyan ediblər.

**Əhalinin hərbçilərin qərarına etiraz olaraq Xartumda başlatdıqları etirazlara cavab olaraq hərbi şura 3 aylıq komendant saatı elan edib.** Ötən gün isə Sudan Hərbi Keçid Şurası ölkədəki vəziyyətlə bağlı açıqlama yayıb. Açıqlamada qeyd olunur ki. hərbçilərin əsas məqsədi Sudanda təhlükəsizlik və sabitliyin qorunub saxlanılmasıdır. Eyni zamanda hərbçilər bəyan edir ki, hakimiyyəti ələ keçirmək niyyətləri yoxdur, hakimiyyəti yeni seçilən hökumətə təhvil verəcəklər: "Əsas hədəfimiz ölkənin təhlükəsizlik və əmin-amanlığıdır, iqtidarda qalmaq fikrimiz yoxdur. Hakimiyyəti seçilən hökumətə təhvil verəcəyik. Proseslərin dalana dirəndiyini gördük, hakimiyyətin baş verənlərə laqeyd qaldığını gördükdən sonra dəyişiklik etməyə qərar verdik".

**Hərbçilər bildirir ki, onlar əl-Bəşirin iqtidarının bir parçası deyillər, xaricdən hər hansı neqativ etirazların olmadığını xüsusi qeyd edən Hərbi Şura Ömər əl-Bəşir hakimiyyətinin əsas simalarının artıq həbs olunduğunu bildirib.** Eyni zamanda açıqlamada qeyd olunur ki, Ömər əl-Bəşir Haaqa Beynəlxalq Tribunalına təhvil verilməyəcək, Sudanda mühakimə olunacaq.

**Hərbçilər ABŞ-ın Sudana tətbiq etdiyi sanksiyaların ləğv olunması, eləcə də 2 illik keçid dövründə siyasi partiyalar, şəxslər, eləcə də meydanlardakı sıravi insanlarla görüşüb onların fikirlərini almağa çalışacaqlarını bildirirlər.** Ölkənin müdafiə naziri ordunun təmsilçisi olacaq, daxili işlər naziri isə Hərbi Keçid Şurası təyin edəcək. Bəyanatda hərbçilər çevriliş etmədiklərini, xalqa xəyanət etməyəcəklərini bildirirlər.



**Qeyd edək ki, Sudana qarşıdakı iki il ərazində rəhbərlik edəcək şəxs Avad ibn Auf da generaldır.** Çevrilişə qədər Hərbi Şuraya rəhbərlik edib. 1954-cü il təvəllüdlü ibn Auf 2015-ci ilin avqust ayından müdafiə naziri, 2019-cu il fevralın 23-dən həmçinin birinci vitse-prezidentdir.

**Xatırladaq ki, Sudanda etirazlar ötən ilin dekabrında başlayıb.** İlk vaxtlarda etirazların əsas tələbi bahalıq və sosial tələblər olub. Belə ki, dekabrda əd-Damazin şəhərində çörək qiymətlərinə etiraz olaraq başlayan aksiyalar tezliklə Sudanın digər bölgələrinə də yayılıb və mitinqlər paytaxt Xartumda keçirilib. Bütün ölkəyə yayılan sosial etirazlar daha sonra prezident Ömər əl-Bəşirin istefasının tələb olunduğu mitinqlərə çevrilib. Etirazların artmasını görən Ömər əl-Bəşir fevral ayında 2020-ci ildə keçiriləcək prezident seçkilərində namizəd olmayacağını elan edib, eyni zamanda hakim Milli Konqres Partiyası sədrliyindən gedib.

**Lakin bütün bu vədlər, həmçinin yeni qəbul olunan və ciddi tənqidlərə səbəb olan qadın hüquqlarını məhdudlaşdıran "İctimai Nizam" Qanununu yumşaltmağa söz verib.** Lakin etirazlar zəifləməyib. Əksinə, paytaxtda aksiyalar daha kütləvi olub. Ən son olaraq aprelin əvvəlində Xartumda Ömər əl-Bəşirin iqamətgahı qarşısında mitinqlər keçirilib.

**Maraqlıdır ki, Misirdə olduğu kimi, Sudanda da Bəşirin ordudan gəlməsinə baxmayaraq hərbçilər etirazlara müdaxilə etməyib.** Bunun əksinə bütün yerli siyasi qüvvələr, o cümlədən müəllimlər, həkimlər kimi nisbətən təminatlı qruplar da etirazlara qoşulub. Sudan Peşəkarlar Birliyi, Sudan Çağırır, Milli Uzlaşma Qüvvələri və digər müxalif qruplar etirazları dəstəkləyib, daha sonra "Azadlıq və Dəyişiklik" deklarasiyasını elan ediblər. İndi isə müxaliflər və meydanlarda olan xalq hakimiyyətin iki il ərzində hərbçilərdə qalmasını istəmirlər. Seçkilərin daha tez keçirilməsi və mülki hökumətin formalaşması tələb olunur. Bu isə yeni hərbi hökumətlə toqquşmaları qaçılmaz edəcək.

**Sudan müsəlman dünyasında "Müsəlman Qardaşlar" Hərəkatının hakimiyyətdə olduğu az saylı ölkələrdən biri idi.** 75 yaşlı paraşütçü-desant general Ömər əl-Bəşir 1989-cu ildə hərbi çevriliş nəticəsində hakimiyyəti ələ keçirib. Onun rəhbərlik etdiyi Milli Konqres Partiyası ideoloji olaraq Misirin "Müsəlman Qardaşlar" hərəkatına yaxındır. Ancaq Bəşir ona qarşı olan bütün qüvvələri, o cümlədən islamçıları zaman-zaman əzib. Eləcə də Afrikada siyasi islamın əsas ideoloqlarından olan Həsən Turabini hakimiyyətdə möhkəmləndikdən sonra uzaqlaşdırıb və həbsə atıb.

**Ancaq buna baxmayaraq Bəşir "islamı" bir rejim qurduğunu nümayiş etdirməyə çalışıb.** Qətər, İran, eləcə də Səudiyyə Ərəbistanı və körfəz ölkələri ilə yaxın münasibətlər qurub. Son illərdə isə Rusiya ilə yaxınlaşıb. Bu ilin əvvəlində Rusiyanın "Vaqner" özəl hərbi şirkətinin silahlıları Xartumda tez-tez görünməyə başlayıb. Bundan başqa əl-Bəşir Yəmənə müdaxilə edən ərəb koalisiyasına qoşulub və Səudiyyə Ərəbistanı ordusuna kömək üçün hərbi qüvvə göndərib.

**Xatırladaq ki, 20-ci əsrin ikinci yarısında ən dəhşətli vətəndaş müharibələrindən biri də Sudanda baş verib.** Cənubi Sudanda baş qaldıran separatçı hərəkata qarşı hərbi əməliyyatlar hər iki tərəfdən çoxlu sayda hərbi qüvvə və dinc insanların ölümünə səbəb olub. Darfur hadisələrində 100 minlərlə insan ölüb. 2009-cu ildə Haaqa Beynəlxalq Hərbi Tribunalı Ömər əl-Bəşir haqqında həbs qərarı çıxarıb.

**2011-ci ildə əl-Bəşir Qərb ölkələrinin təzyiqi ilə Cənubi Sudana müstəqillik verib. Ancaq ölkənin cənubunda toqquşmalar hələ də davam edir.** Sudanda iqtisadi vəziyyət isə həddən artıq pisdir. Qarşıdakı iki il ərzində Sudan hansı istiqamətə gedəcək: Ölkədə ikinci bir əl-Bəşir rejimi qurulacaq, yoxsa demokratik bir seçki keçiriləcək.

**Sudan qonşusu Misir kimi hərbi ənənəsi güclü olan ölkələrdəndir.** Misirdə olduğu kimi Sudanda inqilabın taleyini ordu həll elədi. Təbii ki, ordunun müqaviməti olmasaydı, əl-Bəşir yəqin ki, dirənəcəkdi. Amma ordunun Misirdə olduğu kimi toplanıb qərar qəbul eləməsi bu prosesin taleyini həll elədi. 8 il əvvəl, 2011-ci ilin 10 fevralında da 18 gün davam edən etirazların sonunda Ali Hərbi Şurası yığışaraq vəziyyəti müzakirə etmiş və nəticədə bir gün sonra fevralın 11-də Mübarək istefa verməyə razılaşmışdı və bunun ardınca ölkədəki hakimiyyət Ali Hərbi Şuraya keçmişdi. Və həmin vaxt Ali Hərbi Şura həqiqətən də siyasi keçidi apardı və tezliklə, yeni 2011-ci ilin payızında parlament, 2012-ci ilin yazında isə prezident seçkiləri keçirildi və iqtidar seçilmiş parlament və prezidentə təhvil verildi. Bilindiyi kimi. yalnız bir ildən sonra islamçı hökumətlə ordunun maraqları toqquşanda ordu yenidən kütləvi aksiyalar təşkil edərək bu dəfə inqilab sonrakı hakimiyyətə gələn qüvvələri devirib marşal Əbdülfəttah əs-Sisini iqtidara gətirdi.

**Bu cür təcrübəni 20-ci əsrdə bir neçə dəfə Türkiyə də yaşayıb.** Hər dəfə Türkiyədə hərbçilər iqtidara gələndə müəyyən bir dövrdən sonra seçki keçirib iqtidarı mülki hökumətə təhvil verib. Bəzən təbii ki, yeni mülki hökumətlərin başında keçmiş hərbçilər olub.

**Sudanda xalq narazılığının həddən artıq güclü olması, iqtisadi, sosial vəziyyətin ağır olması, üstəlik ABŞ və Avropa ölkələrinin sanksiyaları hərbçiləri hakimiyyəti ələ keçirməsinə mane olur.** Bu səbəbdən də ordu indi ehtiyatlı yanaşır, hakimiyyəti ələ keçirməyəcəyini, iki illik keçid dövründən sonra seçilmiş mülki hökumətə təhvil veriləcəyini bildirir. Lakin aydındır ki, iki il keçid dövrü xeyli uzundur və daha çox hərbçilərin marağına xidmət edir. Sudan kimi ölkələrdə isə hərbi elita hakimiyyəti ələ keçirməyə çox həvəslidir. Çünki ölkədə onsuz da hərbi əməliyyatlar davam edir, əsas hərbi-siyasi güc generalların əlindədir. Bütün bunları hesablayan hərbi rəhbərlik əlbəttə ki, hakimiyyəti rahat vermək istəmir. Lakin meydanlar və xarici təzyiq onları çəkindirir. Yəqin ki, iki illik keçid dövrü də məhz bunun üçündür.

**İndi isə son sözü Sudan meydanları deyəcək.** Əgər meydanlar daha güclü müqavimət göstərsə, o zaman hərbçiləri sürətli keçidə məcbur edə biləcəklər. Əks təqdirdə növbəti əl-Bəşirin hakimiyyətə gəlməsi ehtimalı daha yüksəkdir.

**Müxalifət isə hərbçilərin təklif-bəyanatını rədd edib.**

❑ **Kənan RÖVŞƏNOĞLU, "Yeni Müsavat"**

YENİ MÜSAVAT
N 78 (7248) 13 aprel 2019

**Dünyada Çili bibəri kimi tanınan acı bibərin tərkibində olan kapsaitsin maddəsi ağciyər xərçənginin inkişafını ləngidə bilər. Bu günlərdə məlum oldu ki, ABŞ-ın Marşall Tibb Universitetinin alimləri apardıqları araşdırmalar nəticəsində belə qənaətə gəliblər.**

# Acı verib, şirin qazandıran bibər

## İnstitut rəhbəri: "Fermerlərə onun istehsalını tövsiyə edirik"

Kapsaitsin alkoloidinin effektivliyi genetikası modifikasiya edilmiş, xərçəng daşıyıcıları olan siçanlar üzərində aparılan təcrübələr zamanı sübut olunub. Kapsaitsin maddəsi xərçəngə yoluxmuş hüceyrələrdə metastaz prosesinin birinci mərhələdə inkişafını dondurub. Bu maddə insanda ağciyər xərçəngində də eyni effekti göstərib.

İndi alimlər kapsaitsin maddəsinin zərər vermədən orqanizmə yeridilməsi yolları üzərində düşünürlər. Belə ki, bu maddə orqanizmdə mədə sancılarına səbəb olur, mədə-bağırsağın selikli qişasına ciddi zərər vura bilir. Mütəxəssislərin fikrinə görə, tezliklə bu maddədən xərçəng xəstəliyinin müxtəlif növlərinin müalicəsində istifadə etmək mümkün olacaq.

Qeyd edək ki, dünya xalqlarının böyük əksəriyyətinin mətbəxində acı bibər xüsusi yer tutur. Onun vətəni Cənubi Amerika hesab olunur. Belə ki, qırmızı acı bibər amerikan hindularının qida rasionuna daxildir. Məşhur səyyah Xristofor Kolumb XV əsrdə Vest-Hində ikinci ekspedisiyası zamanı acı bibərin dadına baxaraq onu "chilli" adlandırıb. "Chilli" qədim astek dilindən tərcümədə "qırmızı" deməkdir. Kolumb onu Amerikaya gətirib və həmin bibər növü oradan bütün dünyaya yayılıb.

Bu gün dünyada qırmızı bibərin əkin sahələrinin sahəsi 5 milyon hektara çatmaq üzrədir. Bu sahələrdən il ərzində 70 milyon tona yaxın məhsul toplanır. Bir hektardan orta məhsudarlıq 15 tondan yuxarıdır. 5 kiloqram məhsuldan 1 kq qurudulmuş qırmızı bibər əldə olunur. Qırmızı bibərin 1 tonunun dünya bazar qiyməti 9 min dollar yaxındır. 2017-ci ildə dünyada qırmızı bibər satrışından əldə olunan gəlirin məbləği 30 milyard dollardan yuxarı olub.

Dünya qırmızı bibər bazarı sürətlə böyüyür. İndoneziya, Çin, Hindistan, Meksika və digər Cənubi Amerika ölkələrində kütləvi şəkildə yetişdirilən Çili bibərinin həm tibdə, həm də məişətdə istehlakı durmadan genişlənir.

Tibb elmində Çili bibərindən uzun illərdir uğurla istifadə olunur. Acılıq dərəcəsinə görə Çili bibərinin bir-birindən fərqlənən bir neçə sortu var. Ona acı dad verən tərkibində olan kapsaitsin alkoloididir. Kapsaitsin bibərin içərisindəki ağ hissədə və toxumlarda daha çox olur. Həmin maddə patogen mikroorqanizmlərin inkişafının qarşısını alır, immun sistemi möhkəmləndirir, qrip və zökəm kimi infeksion xəstəliklərə qarşı orqanizmin dözümlülüyünü artırır, mədədə iltihabi prosesə və xoraya səbəb olan helicobacter pylori bakteriyalarına öldürücü təsir göstərir. Həmçinin kapsaitsin çox güclü antioksidantdır, sərbəst radikalları neytrallaşdıraraq onların orqanizmdən xaric olmasını sürətləndirir. Çili bibərinin tərkibində olan həmin maddə selikli qişadakı ağrı reseptorlarını qıcıqlandırır. Beyinə ötürülən impulslara cavab olaraq orqanizmdə tər ifrazını artıran, ağrıları azaldan və əhvali-ruhiyyəni yaxşılaşdıran endorfinlərin sintezi çoxalır. Acı bibər ekstraktından farmakologiyada analgetik preparatlar və plastrların hazırlanmasında istifadə edilir.



Kapsaitsin orqanizmdə yağların oksidləşmə prosesini aktivləşdirir, temperaturu artırır, mübadilə proseslərini sürətləndirir. Dəri altında toplanaraq "portağal qabığı" görüntüsü verən artıq piy toxumasının parçalanmasını asanlaşdırır. Acı bibər orqanizmdə azot oksidin sintezini artırır, qan damarlarına genişləndirici təsir edərək arterial təzyiqi azaldır, iltihabı proseslərin qarşısını alaraq damarqoruyucu təsir göstərir, disfunksiyaların qarşısını alır.

Çili bibərinin tərkibində olan kapsaitsin şəkərli diabet xəstəliyi olanlarda mədəaltı vəzin qan dövranını yaxşılaşdıraraq insulin sintezini stimulə edir, qanda şəkərin və aşağı sıxlıqlı lipoproteinlərin səviyyəsini azaldır.

**Bir Çili bibərinin tərkibində portağalda olduğundan daha çox C vitamini var.**

Maraqlıdır ki, dünya istehsalçıları acı bibərin acılığını getdikcə artırmaq uğrunda mübarizə aparırlar. Hər il dünyada ən acı adına layiq olmaq üçün yetişdirilən onlarla sort bibər yoxlamalardan keçirilir. Acılıq səviyyəsi Skovill şkalası ilə ölçülür və bibərin tərkibindəki kapsaitsin maddəsinin miqdarını əks etdirir. Şkalanın adı ilk dəfə bibərin acılığını ölçən kimyaçı-alim Uilbel Skovilin şərəfinə adlandırılıb. 2019-cu il vəziyyətinə dünyanın ən acı bibəri adına ABŞ-da yetişdirilən Karolina Riper sortudur. 1 569 300-2 200 000 Skovil acılığı olan bu sort 2013-cü ildən bəri ən acı bibər titulunu qoruyur...

Azərbaycanda necə, acı bibər istehsal edilirmi? Dövlət Statistika Komitəsinin məlumatına əsasən hər il Azərbayacanda 12-13 min ton civarında acı bibər istehsal olunur.

Acı bibərin istehlakına gəlincə, Azərbaycanın Milli Kulinariya Mərkəzinin direktoru Tahir Əmiraslanovun "Yeni Müsavat"a dediyinə görə, bizim mətbəximizdə əsasən şirin bibər - bolqar bibəri istifadə olunur: "Acı bibəri konservant kimi xarici ölkələrdən alırıq. Ən çox Gürcüstandan gətirilir. Azərbaycan mətbəxi acıya meylli deyil, milli mətbəximizdə ondan ümumiyyətlə istifadə olunmur. Amma son vaxtlar müxtəlif mətbəxlərə məxsus yeməklər hazırlanır deyə, acı bibərdən də istifadə olunmağa başlayıb".

**Kənd Təsərrüfatı Nazirliyinin Tərəvəzilik Elmi-Tədqiqat İnstitutunun direktoru Elmar Allahverdiyev**in sözlərinə görə, Azərbaycanda acı bibər geniş olmasa da, yetişdirilir: "Bizim alimlərimiz tərəfindən acı bibərin 3 növü rayonlaşdırılıb. Bunlardan biri "Göy-göl" sortudur ki, institutumuzda populyasiyadan seçmə yolu ilə alınıb. 1992-ci ildən Şimali Qafqazın Kabardino-Balkar Muxtar vilayətində, 1993-cü ildən Azərbaycan Respublikasında və 2001-ci ildən respublikadan yeganə sortdur ki, Rusiyanın bütün bölgələrində rayonlaşdırılıb. Tezyetişəndir, məhsuldarlığı hektardan 350-410 sentnerə çatır. Sort faraş məhsulunu eyni vaxtda formalaşdırır, məhsuldarlığı və əmtəəlik keyfiyyəti yüksəkdir.

"Şəfəq" sortu 2012-ci ildə Dünya Tərəvəzçilik Mərkəzi tərəfindən sınaqdan keçirilmək üçün institutumuza təqdim olunub və müsbət nəticələr əldə edilib. 2017-ci ildə rayonlaşdırılıb. Məhsuldarlıq 330-372 sen/ha, bir bitkidə 19 meyvə formalaşır. Məişətdə ədva kimi və konserv sənayesində istifadə etmək olar. 2017-ci ildə rayonlaşdırılan daha bir acı bibər sortu "Ulduz" adlanır. Onu da 2012-ci ildə Dünya Tərəvəzçilik Mərkəzi sınaqdan keçirilmək üçün bizə təqdim edib və müsbət nəticələr əldə olunub. Məhsuldarlıq 360-385 sen/ha. Bir bitkidə 55 meyvə formalaşır".

İnstitut rəhbəri bildirir ki, onlar fermerlərə, kənd təsərrüfatı istehsalçılarına acı bibər istehsalını genişləndirməyi tövsiyə edirlər: "Bu məhsula tələbat gün-gündən artır. Həm əczaçılıqda, həm də şəxsi istehlakda. Üstəlik, acı bibər məhsuldarlığı yüksək olan bitkidir. Buna görə də bizim fermerlərə tövsiyəmizdir ki, onun istehsalını genişləndirsinlər".

**Azərbaycanda acı bibər istehsalı ilə məşğul olan "Azərsun" Holding əldə etdiyi məhsulu konservləşdirərək həm daxili, həm də xarici bazarda satır. Şirkətin istehsal planları barədə məlumat ala bilməsək də, hesab etmək olar ki, bazarın tələbatının getdikcə artması istehsalın da genişləndirilməsini stimullaşdırır.**

**❑ Dünya SAKİT, "Yeni Müsavat"**

## Valideynlər övladlarına elektron qaydada ad vermək imkanı əldə edəcəklər

**Azərbaycanda valideynlər övladlarına elektron qaydada ad vermək imkanı əldə edəcəklər. Bu barədə ONA-ya Elektron Hökumətin İnkişafı Mərkəzindən bildirilib.**

Bu funksiya "myGov" layihəsi çərçivəsində istifadəyə veriləcək "Şəxsi kabinet"ə inteqrasiya olunacaq. "myGov"un bildiriş sistemi ilə valideynlərə SMS və elektron poçt vasitəsi bildirişlər göndəriləcək.

"Valideynlərə bildiriş göndəriləcək ki, körpəyə ad verilsin. Bu prosesi də məsafədən, elektron qaydada həyata keçirmək mümkün olacaq", - deyə Mərkəzdən bildiriblər.

## Havanın temperaturu 25 dərəcəyə yüksələcək

**Bakıda və Abşeron yarımadasında aprelin 13-də havanın dəyişkən buludlu olacağı, əsasən yağmursuz keçəcəyi gözlənilir. Səhər bəzi yerlərdə zəif duman olacaq. Şimal küləyi əsəcək.**

Ekologiya və Təbii Sərvətlər Nazirliyindən verilən xəbərə görə, havanın temperaturu Abşeron yarımadasında gecə 9-11, gündüz 15-20, Bakıda gecə 9-11, gündüz 17-19 dərəcə isti olacaq.

Azərbaycanın rayonlarında aprelin 13-də hava əsasən yağmursuz keçəcək. Lakin axşam bəzi dağlıq və dağətəyi rayonlarda lokal qısamüddətli yağış yağacağı gözlənilir. Gecə və səhər ayrı-ayrı yerlərdə duman olacaq. Şərq küləyi əsəcək.

Havanın temperaturu gecə 8-13, gündüz 20-25, dağlarda gecə 5-10, gündüz 13-18 dərəcə isti təşkil edəcək.

YENİ MÜSAVAT

Son səhifə

N 78 (7248) 13 aprel 2019

# 8 aylıq uşaq 17 kiloya çatıb

Hindistanın Pencap bölgəsində normal bir çəkidə dünyaya gələn Çahat Kumar adlı uşaq 8 ay ərzində 17 kiloya çatıb. 4 yaşındakı bir uşaqla eyni ağırlıqda olan Ç.Kumarın ailəsi də, həkimləri də durumdan xeyli narahatdırlar. Amma tibbi araşdırma və analizlər uşağın niyə bu qədər sürətlə kökəldiyini müəyyənləşdirə bilmir. Kumarın anası Reena isə deyib ki, “Çahatdan öncə bir oğlan övladını doğum əsnasında itirib: ”Qızımı da itirmək istəmirəm. Normal bir uşaqdan dörd dəfə çox yeyir. Yemək vermədiyimiz vaxt isə daim ağlayır. Ona yemək çatdıra bilmirik. Bu işin axırı necə olacaq, bilinmir".



## İtin səsindən bezib öldürdü, ətini onun sahibinə yedizdirmək istədi

Cənubi Koreyadan olan fermer qonşusunun itini öldürüb. O, bunu heyvanın çıxardığı güclü səs-küydən narahat olması ilə izah edib. Bu barədə lenta.ru saytı xəbər verib. Adı açıqlanmayan 62 yaşlı kişi bu əməlini özü etiraf edib. Deyib ki, itin davamlı hürməsi onu özündən çıxarıb. Cinayətkarın sözlərinə görə, o, itə daş atıb və it şüursuz vəziyyətə düşüb. “Bundan sonra o, heyvanı boğub və ona ət hazırlayıb” - bunu da detektiv deyib.

İt sahibinin qızı itən heyvanla bağlı axtarışlar aparıb, onun şəkli olan vərəqələri hər yerə yayıb və qonşulardan bu məsələ ilə bağlı yardım istəyib. Qatil qızı inandırıb ki, ona yardım edəcək. Hətta iti öldürəndən bir gün sonra onun sahibini ziyarət edib, onunla içki içib və sakitləşdirməyə çalışıb. Eyni zamanda fermer bütün ailəni nahara dəvət edib. Ailə naharda it ətindən yemək olacağını biləndən sonra bu dəvətdən imtina ediblər.

**Cənubi Koreyada it əti yeyilməsi ənənəvi mətbəxin bir hissəsi sayılır. Beləliklə, gənc nəsil ev heyvanlarının öldürülməsinə qəti etiraz edir. Heyvan hüquqları müdafiəçilərinin səyi və aparılan ümumi mübarizənin nəticəsi olaraq, bu işi görənləri iki ilə qədər azadlıqdan məhrum etmə və pul cəzası gözləyir.**

## Tozsoranı cinayətkar bilib polis çağırdı...

**Amerikanın Oreqon ştatının sakini vanna otağındakı robot-tozsoranı cinayətkar kimi qəbul edib. Bu barədə NBC News xəbər verib. Polis hadisə yerinə 7 dəqiqə sonra gəlib. “Biz evə girəndə vanna otağında güclü səs eşitdik”, -bunu da polislər deyib. Onlar tələb ediblər ki, “qanun pozucusu” sözügedən məkandan çıxsın. Amma ondan hər hansı səs gəlməyib.**

Silahlı polislər qapını qırıb içəri daxil olanda yerdə robot-tozsoran görüblər. Protokola əsasən, həmin məqamda aparat “həssas təmizlik” işi aparırırmış.

2018-ci ildə Şotlandiya firması oyuncaq pələngi diri pələng kimi qəbul edib və polis çağırıb. 45 dəqiqə sonra fermer diqqət edib ki, “heyvan” heç bir dəfə də tərpənməyib. O, maşınla daha yaxına gəlib və anlayıb ki, onların qaşırısında böyük, yumşaq oyuncaq var. Çağırışa gələn polislər yumşaq oyuncağı götürüblər və fermerə də deyiblər ki, öz talismanı ilə nə istəyir etsin.





## Ərini yolun ortasında döydü

Türkiyənin Balıkəsir şəhərində ərinin hərəkətlərindən hirslənən qadın onu küçənin ortasında döyüb. Hirsi bununla da soyumayan qadın əlinə keçirdiyi süpürgə ilə ərini üstünə düşüb. O anlar isə bir vətəndaş tərəfindən görüntülənib. Məlum olub ki, hadisəyə səbəb cütlüyün aptekə getməsi və aptekdə alacaqları dərmanlar üçün pullarının çatmaması olub. Ərinin üstündən dərmanın pulu çıxmayınca qadın da hirslənib. İlk olaraq ərini aptekdən sürüyərək çıxaran qadın daha sonra ona yumruq zərbələri endirməyə başlayıb. İkinci mərhələdə isə ərini yerdən götürdüyü süpürgə ilə döyməyə davam edib. Aptekə taksi ilə gələn cütlüyü gözləyən sürücü isə vəziyyət kritik hala gəlincə hadisə yerindən uzaqlaşıb. Bir müddət sonra hirsli qadını yanındakı yaxını hadisə yerindən uzaqlaşdırıb. Arvadının qəzəbinə məruz qalan kişi isə onun arxasınca düşərək, oradan uzaqlaşıb.




**QOÇ** - Təxminən saat 14-ə qədər nəqliyyatla, eləcə də təhlükəli cihazlarla ehtiyatlı davranın ki, xəsarət almayasınız. Nahardan sonra isə sevindirici məqamlar mümkündür.

**BUĞA** - Günün ümumi mənzərəsi qənaətbəxş olsa da, bəzi vacib məsələlərdə həlledici qərarı özünüz çıxarmalısınız. Xüsusən də günün ikinci yarısında uzaqgörənliyə ehtiyacınız olacaq.

**ƏKİZLƏR** - Bəxtinizə inana bilərsiniz. Belə ki, çoxsaylı məqamlarda olduğu kimi bu gün də hansısa probleminiz gözləmədiyiniz halda həll olunacaq. Sevginizi məhdudlaşdırmayın.

**XƏRÇƏNG** - İxtiyarınızda olan bu təqvim qarşınızda böyük öhdəliklər qoyacaq. Yaxın həftə üçün görəcəyiniz işləri konkretləşdirin. Çalışın ki, çıxardığınız qərarlar ədalət prinsiplərinə söykənsin.

**ŞİR** - Bütün diqqətinizi ailə məsələlərinə, eləcə də tərəf-müqabilinizlə münasibətlərə yönəldin. Hər hansı mübahisə başağrınıza səbəb ola bilər. Yersiz hücumlarınızı dondurun.

**QIZ** - Şəxsi işlərinizdə əsaslı dönüş gözlənilir. Hətta ətraf mühitin ürəyinizcə olmaması da sizə mane olmayacaq. Aldığınız təkliflərdən imtina etməyə tələsməyin. Götür-qoy edin.

**TƏRƏZİ** - Maddi durumunuz müəyyən qədər dirçələ bilər. Bu şərtlə ki, büdcənizə işıq salan bütün instansiyalara üz tutasınız. Gün ərzində oturaq fəaliyyətdən uzaq olmanız məsləhətdir.

**ƏQRƏB** - Ulduzlar digər məsələlər haqqında sussa da, fəaliyyət sahəsində sizi böyük müvəffəqiyyətlər gözlədiyini bəyan edir. Odur ki, bu istiqamətdə istənilən təklifi qəbul etməyə dəyər.

**OXATAN** - Təzə xəbərlər yolunuzu gözləyir. Hətta yeni iş təklifləri alacağınız da mümkündür. Odur ki, işgüzar əlaqələrinizi dərinləşdirməlisiniz. Uzaq səfərləri hələlik təxirə salın.

**OĞLAQ** - Özünüzə çox da güvənməyin. Çünki mövcud durumunuz qürrələnməyə heç bir əsas vermir. Yaxşı olar ki, sadəlik nümayiş etdirəsiniz. Yaxınlarınızın çətinliyinə biganə yanaşmayın.

**SUTÖKƏN** - Ailə-sevgi münasibətlərində müəyyən qanqaraçılığı müşahidə olunacaq. Bunun qarşısını almaq üçün proqnozunuzu oxuyan kimi səbr nümayiş etdirməli, mübahisələrdən uzaq olmalısınız.

**BALIQLAR** - Bu füsunkar günlə layiqincə davransanız, yaxın perspektivlərinizdə parlaqlıq qazana bilərsiniz. Əsas vəzifəniz səhhətinizi qorumaqdan ibarət olmalıdır. Mübahisələrdən yayının.

**Unutmayın, Tanrı ulduzlardan daha yüksəkdə durur!**

## Evində pişik saxlayanlara xəbərdarlıq



İngiltərədə aparılan bir araşdırmaya görə, ildə 350 min ingilis intihar riski ilə üz-üzə gəlir. Araşdırma zamanı ev heyvanlarında meydana gələn və şizofreniyaya səbəb olan bir parazit evdə yaşayanlarla kontakta girir. Haberturk.com saytının xəbərinə görə, evində pişik olan şəxslər intihar riski ilə üz-üzə qalır. Çünki pişik bu parazitə daha tez yoluxur. Toksoplazma (“gondii ttp://www.haberturk.com/saglik/etiket/toksoplazma_gondii”) adlı parazitə görə ortaya çıxa bilən ciddi xəstəliklər arasında psxoloji problemlər də yer alıb. Parazitlər təkcə pişikdən yox, yeyilən heyvan ətindən və tərəvəzlərdən də keçə bilir.

Səhifəni hazırladı: SELCAN

Təsisçi: Rauf ARİFOĞLU
Baş redaktorun birinci müavini: Azər AYXAN

e-mail adres: yenimusavat@mail.ru

Ünvan: Bakı şəhəri, R.Rüstəmov küçəsi 2528-ci məhəllə ev 44/d
Tel: 520 01 23 (24, 25, 26, 27, 28)

Redaktor: Elşad MƏMMƏDLİ

Lisenziya N: B 114
SAYI: 5.755

“Yeni Müsavat”ın kompüter mərkəzində yığılıb, səhifələnib, “Azərbaycan” nəşriyyatında çap edilib. Əlyazmalar geri qaytarılmır. Müəlliflərlə redaksiyanın mövqeyi uyğun gəlməyə bilər.